DİQQƏT!

SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.
**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 179 (6143) 10 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# "Bizim qabağımızda Ermənistan acizdir. Bizim qabağımızda Ermənistan diz çöküb!"



Bax 2

## Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

### "Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzünə dini don geyindirilməsi qəbuledilməzdir"

Bax 4



Ermənistan tərəfindən guya Azərbaycanın tarixi şəhəri olan Şuşada kilsəyə raketlə zərbə endirilməsi barədə xəbərlər yayılıb. Biz, bu xüsusda dünya xristianlarının həssas hisslərinə böyük hörmətlə yanaşırıq. Amma təəssüflə qeyd etməliyik ki, Ermənistan tərəfindən bu mövzuda manipulyasiya və dezinformasiya aparılır.

### Paşinyan Prezident İlham Əliyev qarşısında ağ bayraq qaldırdı!

Bax 12



*Azərbaycanın şanlı Silahlı Qüvvələrinin Qarabağ cəbhəsində işğalçı Ermənistanın təcavüzkar siyasətinə qarşı apardığı qələbə yürüşü sonda düşmən tərəfinin diz çökməsinə səbəb oldu. Bu reallıq bir daha sübut etdi ki, Prezident İlham Əliyev əzmli, qətiyyətli ...*

### "Bu çirkin oyunda iştirak etməyin, yoxsa erməni xalqını məhvə apardığınıza görə gələcəyin lənəti üzərinizdə olacaq"




Bakı şəhərində yaşayan ermənilər dünya ermənilərinin katalikosu II Qareginə, dünya ermənilərinə, Qarabağda yaşayan ermənilərə müraciət edib. Müraciətə on minlərlə erməni adından 17 şəxs imza atıb. Modern.az-a istinadla müraciəti təqdim edirik: Dünya...

Bax 7

### Ermənistanda əsgər valideynlərinin etirazı: Paşinyan gəldiyi kimi gedəcəyindən qorxur




Sentyabrın 27-dən başlayaraq əks-hücum əməliyyatını uğurla icra edən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr vurmaqda davam edir, 30 ilə yaxındır işğal altında olan

Bax 7

### 2040-cı ildə Bakının əhalisi nə qədər olacaq?

Bax 12



Gələcək əhali sayının, eləcə də əhalinin yaş qrupları üzrə bölgüsünün müəyyən edilməsi ərazilərdən istifadə, mənzil təminatı, ictimai nəqliyyat sisteminin sərnişindaşıma imkanları, mühəndis və xidmət təminatı infrastrukturu kimi əsas...

### Hərb meydanından qaçan siçovulların isterikası



Bax 13

"Hərb meydanında böyük uğursuzluğa düçür olmuş Ermənistan son günlər Azərbaycanın sosial şəbəkələri məkanında Azərbaycan dilində saxta xəbərlər, səs yazıları yaymaqdadır. Səs yazılarında sərsəm fikirləri ifadə...

### Ermənistan ordusunun "Qrad" sistemləri məhv edilib



Bax 4

### Bakıda tramvaylar bərpa olunacaq?



Bax 14

### Suares Messinin rekordunu qırdı



Bax 16

# "Bizim qabağımızda Ermənistan acizdir. Bizim qabağımızda Ermənistan diz çöküb!"

## *Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

***Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.***



Prezident İlham Əliyevin xalqa müraciəti

-Əziz həmvətənlər.

Bu gün müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

İşğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını sizin diqqətinizə çatdırmaq istərdim: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi.

Bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi tarixi qələbəmizdir. Azərbaycan işğal altında olan torpaqları işğaldan azad edir. Demək olar ki, hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün bizim əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Eyni zamanda, strateji yüksəklikləri götürərək daha əlverişli mövqelərə sahib olurlar. Beləliklə, əməliyyat planı tam icra edilir, əməliyyat planı müasir döyüş prinsiplərinə əsaslanır. Azərbaycan Ordusu həm maddi-texniki təchizat baxımından, eyni zamanda, döyüş hazırlığı baxımından bu gün döyüş meydanında tam üstünlüyə sahib olubdur.

Bu gün aparılan döyüşlərdə düşmənin hərbi texnikası böyük dərəcədə məhv edilmişdir və eyni zamanda, hərbi qənimət götürülmüşdür. Deyə bilərəm ki, sentyabrın 27-dən bu günə qədər bütövlükdə Ermənistan Ordusuna çox böyük zərbə vuruldu. Mən, sadəcə olaraq, Azərbaycan Ordusu tərəfindən məhv edilmiş və hərbi qənimət kimi götürülmüş Ermənistanın hərbi texnikasının siyahısını sizin diqqətinizə çatdırmaq istərdim. Ermənistanın itkiləri ilə əlaqədar məlumat verirəm: 16 komanda məntəqəsi məhv edildi, 196 tank məhv edildi, 38 BM-21, 1 "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu, - onlardan 8-i "Akasiya", 2-si "Qvozdika", - 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 "Repelend" radiotexniki maneə vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 2 radiolokasiya stansiyası, 1 "Kalçuqa" anteni.

*"Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Kimə yalvarırsan yalvar, kimin ayağının altına yıxılırsan yıxıl, kimin dabanlarını yalayırsan yala, heç kim bizə təsir edə bilməz!"*

Qənimət kimi götürülmüş hərbi texnika aşağıdakı kimidir: 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını.

Onu da bildirməliyəm ki, düşmənin əlində Azərbaycan Silahlı Qüvvələrinə məxsus olan bir dənə də hərbi texnika yoxdur. Düşmən öz xalqına nağıllar danışır, yalan danışır. Faktları saxtalaşdırır, öz xalqını aldatmaq istəyir, beynəlxalq aləmi aldatmaq istəyir ki, guya onlar hücuma keçirlər, onlar bizim bəzi mövqelərimizi geri alıblar. Hamısı yalandır. Döyüşlərin obyektiv müşahidə mənzərəsi var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında qələbə əldə edibdir. Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Azərbaycan əsgər və zabiti yüksək mənəvi psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil. Onlar mövqeləri qoyub qaçırlar. Baxmayaraq ki, 30 il ərzində təmas xətti boyunca və bir neçə xətt üzrə dərin eşelonlanmış müdafiə sistemi qurulub. Mühəndis-istehkam qurğuları qurulub. Onları yarmaq, onları keçmək çox çətindir. Bəzi hallarda bəzi istehkamları keçmək üçün bizə bir neçə gün lazım olur. Eyni zamanda, biz bütün işləri elə aparırıq ki, az itkilər verək. Ona görə bəzi hallarda müxtəlif istiqamətlər üzrə mövqelərimizdə möhkəmlənib, ondan sonra yeni əməliyyat üçün hazırlıq işləri də görürük ki, maksimum nəticə, minimum itki olsun.

Bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün Azərbaycan əsgərləri bizim işğal edilmiş torpaqlarda ermənilərin qazdıqları səngərlərdə keşik çəkirlər - onlar bizim yox, biz onların səngərlərində, biz onların postlarında, biz onların tanklarında. Qənimət kimi götürülmüş o hərbi texnikadan indi biz istifadə edirik - 18 tank. Onların tankları indi döyüş meydanında onlara qarşı vuruşur. Budur Azərbaycan Ordusunun üstünlüyü, bizim üstünlüyümüz. Bu gün açıq informasiya məkanında, internetdə göstərilir, necə dəqiq, sərrast atəşlərlə düşmənin canlı texnikası məhv edilir.

Düşmən panikadadır, düşmən isterikaya qapılıb. Düşmən ölkənin rəhbərliyi tamamilə özünü itirmiş vəziyyətdədir. Müxtəlif ölkələrə, müxtəlif ölkələrin dövlət-hökumət başçılarına müntəzəm olaraq zəng edir, dəfələrlə, gündə bir neçə dəfə yardım istəyir, imdad diləyir, yalvarır. Onların ayağının altına yıxılır. Özünü alçaldır ki, gəlin, bizi xilas edin. Onların xilasının yeganə yolu budur ki, torpaqlarımızdan çıxsınlar. Biz dəfələrlə bunu demişik, öz xoşunuzla çıxın bizim torpaqlarımızdan. BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirin, yoxsa, peşman olacaqsınız. Hesab edirsiniz ki, Azərbaycan bu vəziyyətlə barışacaq? Barışmayacaq, dəfələrlə demişəm. Hesab edirdiniz ki, Azərbaycan xalqı bu təhqirlərlə barışacaq? Barışmayacaq, dəfələrlə demişəm. Amma bizim torpaqlarımızda oturub, bizim müqəddəs torpağımızı zəhərləyib sonra da bizə qarşı iddia qaldırasan - qudurğanlığın dərəcəsinə baxın. Biz onları yerinə oturtduq. Biz onlara yerlərini göstərdik. Biz onları elə qovuruq ki, onlar bu sprinti heç vaxt yaddan çıxarmayacaqlar.

Bu gün bütün cəbhə boyu döyüşlər gedir. Azərbaycan bütün istiqamətlər üzrə mövqelərini möhkəmləndirir və biz işğalçını, təcavüzkarı sülhə məcbur edirik. Bu əməliyyatın əsas məqsədi də budur. Biz onlara göstərdik ki, döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik. Onlar bizim gücümüzü gördülər, bizim iradəmizi gördülər. Onlar gördülər ki, dünyada heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Kimə yalvarırsan yalvar, kimin ayağının altına yıxılırsan yıxıl, kimin dabanlarını yalayırsan yala, heç kim bizə təsir edə bilməz! Biz haqq yolundayıq, biz qalib gəlirik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!

Amma işğalçıya bəlkə də sonuncu dəfə şans veririk ki, çıxın bizim torpaqlarımızdan. Çıxın, öhdəlik götürün, danışıqlara qayıdın, danışıqların formatına qayıdın. Yoxsa, Ermənistanın baş naziri özünü nə hesab edir? Bizimlə bu tərzdə danışmaqmı olar? İndi biz ona yerini göstərdik. "Qarabağ Ermənistandır" deməklə Qarabağ heç vaxt Ermənistan olmayacaq. İndi görüm necə deyir "Qarabağ Ermənistandır". Səsini belə çıxara bilmir.

**Ardı Səh. 3**

# “Bizim qabağımızda Ermənistan acizdir. Bizim qabağımızda Ermənistan diz çöküb!”

## *Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

**Əvvəli-Səh-2**

İndi məcbur olub onların xarici işlər naziri Moskvaya danışıqlara gəlib. Gəlsin, orada desin “Qarabağ Ermənistandır”. Əgər belə bir şey desə, heç bir danışıqlardan söhbət gedə bilməz. Mən bunu demişəm, heç kim bizi məcbur edə bilməz. Deyirdi ki, biz kriminal “Dağlıq Qarabağ respublikası”nın quldur başçısı ilə danışıqlar aparmalıyıq. Biz heç vaxt buna razı ola bilmərik və bu heç vaxt olmayacaq. Ona görə, dünən və srağagün siyasi müstəvidə baş vermiş hadisələr onu göstərir ki, Ermənistan rəhbərliyi nəhayət başından böyük zərbə alandan sonra dərk etməyə başladı ki, o ancaq bizim şərtlərlə oturub duracaq. Biz nə desək, o da olacaq. Şans veririk ki, danışıqlar yolu ilə, sülh yolu ilə torpağımızdan çıxsın. Onsuz da biz bu torpaqlara qayıdacağıq. Onsuz da biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bütün dünya bunu gördü, o cümlədən Ermənistan bunu gördü. Biz istəyirik ki, qan tökülməsin. Biz istəyirik ki, şəhidlər olmasın. Biz öz torpaqlarımızı istəyirik. Çıxın gedin bizim torpağımızdan, rədd olun bizim torpağımızdan! Gedin öz ölkənizdə yaşayın. Amma biz torpağımızı geri alacağıq. Ona görə bu tarixi şansı onlar qaçırmamalıdır.

Bu gün Moskvada keçiriləcək görüş, hesab edirəm ki, bir çox şeylərə aydınlıq gətirəcək. Onlar baza prinsiplərini qəbul etməlidirlər. Halbuki Paşinyan demişdi ki, o, onları qəbul etmir. Demişdi ki, Azərbaycana bir qarış torpaq verməyəcəyəm. Nə oldu bəs?! Gəl tut o işğal edilmiş torpaqları. Bəs, verməyəcəkdin? Nə oldu verdin? Nə oldu qaçdın? İndi gedirsən onunbunun dabanını yalaya-yalaya, özünü alçalda-alçalda öz xalqını alçaldırsan. Öz ölkəni sıfıra bərabər etmisən. Demişdi ki, verməyəcəkdi bu torpaqları. Kimdir səndən soruşan, verəcəksən ya verməyəcəksən?! Gəldik götürdük, vəssalam. Götürəcəyik, nə qədər lazımdır, istəsək artıqlaması ilə. Necə ki, iyul ayında götürə bilərdik. Mən bunu demişdim. İyul ayında biz rahatlıqla Ermənistan ərazisinə keçə bilərdik, orada da torpaqları zəbt edə bilərdik. Heç kim bizim qabağımızı ala bilməzdi. Bu döyüşlər onu göstərir. Eləmədik bunu, qoymadım mən. Halbuki bizim hərbçilərimiz artıq hazır idi buna. Qoymadım. Çünki siyasi iradə var. Biz qanunlar çərçivəsində fəaliyyət göstəririk. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verməyəcəyik. Bəs, nə oldu, Paşinyan? Deyirdin ki, “Dağlıq Qarabağ respublikası” o cümlədən işğal edilmiş bütün torpaqları əhatə edir. Bəs, gəl müdafiə et bunları. Niyə qaçırsan Moskvaya? Niyə zəng vurursan, dünya liderlərinin beynini xarab edirsən? Daha kim qaldı ki, zəng etməsin. Kim qaldı ki, zəhləsini tökməsin. Bir məsləhət verərdim ki, bəlkə şamanlara zəng etsin. Onlar ona kömək etsin. Ya da ki, hansısa uzaq adada yaşayan bir qəbilə başçısına zəng etsin, o, onun canını qurtarsın. Necə deyərlər, lətifə personajına çevrilib. Açın, sosial şəbəkələrə baxın, lağa qoyurlar, ələ salırlar, lətifələr qoşurlar. Öz ölkəsini bu qədər rəzil edən, bəlkə də dünya miqyasında ikinci adam olmayıb. Nəyə görə? Çünki gəlib başqasının torpağında oturub, o torpaqdan çıxa bilmir.

> *“Düşmən panikadadır, düşmən isterikaya qapılıb. Düşmən ölkənin rəhbərliyi tamamilə özünü itirmiş vəziyyətdədir. Müxtəlif ölkələrə, müxtəlif ölkələrin dövlət-hökumət başçılarına müntəzəm olaraq zəng edir, dəfələrlə, gündə bir neçə dəfə yardım istəyir, imdad diləyir, yalvarır. Onların ayağının altına yıxılır. Özünü alçaldır ki, gəlin, bizi xilas edin. Onların xilasının yeganə yolu budur ki, torpaqlarımızdan çıxsınlar”*

Ona görə mən Azərbaycan xalqına üz tutub deyirəm, biz torpaqlarımızı geri alacağıq. Mən xatırlayıram, Dağlıq Qarabağda qanunsuz oturan və oradan çıxarılacaq dəstə başçısı Şuşa şəhərində özünə “andiçmə” mərasimi keçirmişdir. O vaxt bu Azərbaycan cəmiyyətində böyük rezonans yaratdı, yəni, çox böyük təsir etdi. Biz bunu təhqir kimi qəbul etdik - biz hamımız, istisnasız. Yadımdadır, mənə də çağırışlar olmuşdur ki, biz buna imkan verməməliyik, biz oranı bombalamalıyıq, oranı dağıtmalıyıq. Əlbəttə ki, mən buna gedə bilməzdim. Çünki bizim müharibəmiz mülki vətəndaşlarla deyil. Ermənistandan fərqli olaraq, biz mülki vətəndaşları atəşə tutmuruq. Ancaq biz bunu unutmamışıq. İndi getsin onun and içdiyi mərasimin keçirildiyi binaya baxsın. Nə gündədir o!

Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik. Ona görə də bu gün bizim uğurlu əməliyyatımız böyük nəticələrə gətirib çıxardı. Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində.

Bir məsələyə də toxunmaq istəyirəm. Azərbaycan xalqı da bunu vasitəçilərdən, bəzi beynəlxalq təşkilatların rəhbərlərindən dəfələrlə eşidib ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən isə demişdim ki, bu tezislə razı deyiləm və mən haqlı çıxdım, mən! Otuz ilə yaxındır danışıqlar aparılır. Bir məsələ yerindən tərpəndi? Bir santimetr torpaq bizə danışıqlar yolu ilə verildi? Təcavüzkarı məcbur etdilərmi ki, bizim torpağımızdan çıxsın, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirsin? Yox. Bəs, bu məsələ indi necə həll olunur? Bu, hərbi yol deyilmi? Məhz hərbi yolla bu məsələ həll olunur. Hərbi, ondan sonra siyasi. Bu əməliyyat olmasaydı, biz təcavüzkara lazımi zərbələr endirməsəydik, onların dərsini verməsəydik, indi o qaçardımı Moskvaya danışıqlar aparmaq üçün?! Oturacaqdı özündən razı, deyəcəkdi ki, torpaqları vermirik. Biz məcbur etdik onları. Biz onları elə günə saldıq ki, indi gizlənməyə deşik axtarırlar, tapa bilmirlər. Oturublar, siçan kimi ağzına su alıb susurlar. Bəs, hanı sənin hikkən?! Hanı sənin təkəbbürün?! Hanı sənin “qəhrəmanlığın”?! Deyirdin “Qarabağ Ermənistandır”. Qarabağ Azərbaycandır. Bunu hamı bilməlidir, o cümlədən bu gün Ermənistanın başında oturanlar da bilməlidir. Mən onlara bir daha deyirəm, əgər Moskva danışıqlarından sonra yenə də saxtakarlıq edəcəklərsə, özləri peşman olacaqlar. Biz torpaqlarımızı geri alacağıq - sülh yolu ilə, ya da ki, müharibə yolu ilə. Birmənalı! Biz istəyirik ki, sülh yolu ilə bunu təşkil edək, sülh yolu ilə bunu alaq. Ermənistana axırıncı şans veririk, axırıncı şans! Heç kimə ümid bağlamasın. Heç kim onlara kömək etməyəcək. Bizim qabağımızda Ermənistan acizdir. Bizim qabağımızda Ermənistan diz çöküb. Bizim şəhidlərimizin ruhu qarşısında biz onları diz çökdürmüşük. Şəhidlərimizin qanı yerdə qalmayıb. Mən dəfələrlə şəhid ailələrinin nümayəndələri ilə, şəhid valideynləri ilə görüşlərdə demişdim ki, biz onların qisasını alacağıq. Bizim şəhidlərimizin qanı yerdə qalmayacaq və qalmır. Biz qan istəmirik. Biz istəyirik torpaqlarımız bizə verilsin. Verilsin, uzatmasınlar məsələni. Stasu-kvo deyilən məsələ yoxdur, qurtardı getdi. Status-kvo belə olmalıdır, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini. Özü də o bölgənin relyefi təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də 30 il ərzində orada beton istehkamlar qurulub. Yarıb keçmişik. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Yoxdur təmas xətti. İndi deyirlər yeni təmas xətti olacaq. Olmayacaq! Biz torpaqlarımızı geri alacağıq. Hansı təmas xəttindən söhbət gedə bilər?! Yoxdur bu, biz dağıtmışıq, biz etmişik, iradə göstərmişik, güc göstərmişik, xalqımızın iradəsinə arxalanmışıq və bu gün qələbə çalırıq. Tarixi qələbə çalırıq! Bu qələbə Azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlaq qələbədir. Gələcəkdə bu qələbələr davam edəcək. Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq. Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdir. Qovacağıq onları axıra qədər. Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

# Azərbaycan Prezidentinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirləri Vyetnam mətbuatında

***Vyetnamın aparıcı media qurumlarından olan “Voice of Vietnam” (VOV News) xəbər agentliyinin saytında Prezident İlham Əliyevin “Əl-Ərəbiyə” telekanalına Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verdiyi müsahibəyə istinadla məqalə dərc olunub.***

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidentinin fransalı həmkarı Emmanuel Makronla telefon danışığına toxunulub. Bildirilib ki, həmin söhbət zamanı Fransa Prezidentinin Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələri ilə hərbi qarşıdurmada Azərbaycan tərəfində müharibəyə qoşulmaq üçün Suriyadan Türkiyə ərazisi ilə gələn xarici döyüşçülər barədə sorğu edib. Yazıda müsahibəyə istinadla qeyd edilir ki, Azərbaycan Prezidenti irəli sürülən ittihamı qəti şəkildə rədd edib və bununla əlaqədar Fransa Prezidentinə etirazını bildirərək, ondan bu iddianı təsdiqləyən sübutları təqdim etməyi xahiş edib.




“VOV News” Prezident İlham Əliyevə istinadən bildirir ki, Fransa indiyədək Azərbaycan tərəfinə bu ittihamı təsdiqləyən heç bir sübut təqdim etməyib.

Məqalədə Azərbaycan Prezidentinin mövzu ilə əlaqədar “Əl-Ərəbiyə” kanalına müsahibəsindəki “Azərbaycan torpağında əcnəbi döyüşçülər yoxdur. Buna heç ehtiyac da yoxdur. Bizim ordumuz demək olar ki, yüz min nəfərdən ibarətdir” fikrinə də yer verilib. Xəbərdə, həmçinin qeyd edilir ki, Prezident Əliyev bununla kifayətlənmir və Türkiyənin “F-16” təyyarəsinin Ermənistanın “SU-25” təyyarəsini vurması barədə ittihamı təkzib edərək, bu hadisənin baş verməsi ilə bağlı heç bir sübutun olmadığını və bununla bağlı günahlandıranlardan əsassız iddialara görə Azərbaycan tərəfindən üzr istəməsini tələb edib”.

# Səfir: "İsrail Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında həllinə tərəfdardır"



Milli Məclisin Sədri Sahibə Qafarova İsrailin ölkəmizdəki səfiri Corc Dik ilə görüşüb. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkələrimiz arasındakı münasibətlərin hazırkı səviyyəsinə toxunan Sədr Dağlıq Qarabağ münaqişəsində hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə İsrail dövlətinə təşəkkürünü bildirib. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və hərbi təxribatları barədə səfirə məlumat verən Sahibə Qafarova qeyd edib ki, Ermənistan silahlı qüvvələri iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi təxribatların ardınca, sentyabrın 27-də növbəti dəfə təmas xəttində yerləşən kəndlərimizə, hərbi mövqelərimizə hücum edib. Buna cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayıb və artıq işğal altındakı bəzi ərazilərimiz azad edilib.

Milli Məclisin Sədri bildirib ki, Ermənistan son günlər cəbhə xəttindən kənarda yerləşən şəhər və rayonlarımızı, mülki əhalini hədəfə alır. Bunun nəticəsində dinc insanlar arasında ölənlər və yaralananlar var. Həmçinin enerji infrastrukturuna və yaşayış binalarına ciddi ziyan dəyib, dağıntılar var. Bu, bir daha Ermənistandakı hərbi-siyasi rejimin cinayətkar mahiyyətini əks etdirir. Spiker qeyd edib ki, Ermənistan informasiya cəbhəsində də təxribat xarakterli məlumatlar yayaraq beynəlxalq ictimai rəyi çaşdırmağa çalışır. Sahibə Qafarova deyib ki, Azərbaycanın bu münaqişəni həll etməyə qadir Silahlı Qüvvələri var və bunun üçün heç bir başqa qüvvə cəlb etmir.

Parlamentlərarası münasibətlərin inkişafından danışan Milli Məclisin Sədri Sahibə Qafarova ölkələrimizin parlamentləri arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Spiker qeyd edib ki, bu baxımdan hər iki ölkənin parlamentində fəaliyyət göstərən dostluq qrupları mühüm rola malikdir.

Səmimi görüşə görə minnətdarlığını bildirən səfir Corc Dik Sahibə Qafarovanı Milli Məclisin Sədri kimi yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik edib. Ölkəmizdə qadınların ictimai-siyasi həyatdakı rolundan danışan səfir qeyd edib ki, Azərbaycan Şərqdə qadına seçki hüququ verən ilk ölkə kimi bu gün də qadınların həyatın müxtəlif sahələrində fəal təmsil olunmasına şərait yaradır.

Diplomat vurğulayıb ki, Azərbaycanda heç vaxt antisemitizm olmayıb və bu baxımdan digər ölkələrə nümunə ola bilər. Burada müxtəlif xalqlar, o cümlədən yəhudilər bərabərhüquqlu vətəndaşlar kimi yaşayırlar.

Ermənistan-Azərbaycan münaqişəsinə toxunan səfir ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında həllinə tərəfdar olduğunu diqqətə çatdırıb. İkitərəfli əməkdaşlığın inkişafından danışan diplomat bildirib ki, ölkələrimizin pandemiyaya qarşı mübarizədə səhiyyə sahəsində də yaxından əməkdaşlıq etməsi təqdirəlayiqdir. Görüşdə ölkələrimiz arasında müasir texnologiyalar, energetika və digər sahələr üzrə əməkdaşlıq barədə də fikir mübadiləsi aparılıb.

# "Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzünə dini don geyindirilməsi qəbuledilməzdir"



Ermənistan tərəfindən guya Azərbaycanın tarixi şəhəri olan Şuşada kilsəyə raketlə zərbə endirilməsi barədə xəbərlər yayılıb. Biz, bu xüsusda dünya xristianlarının həssas hisslərinə böyük hörmətlə yanaşırıq. Amma təəssüflə qeyd etməliyik ki, Ermənistan tərəfindən bu mövzuda manipulyasiya və dezinformasiya aparılır. Ermənistan tərəfindən kilsənin raketlə vurulması ilə əlaqədar təqdim olunan materiallar ziddiyyətlidir və aydın şəkildə yalanlar ortaya çıxır. AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: "Birincisi, Azərbaycan Ordusu tərəfindən kilsə və digər mülki təyinatlı obyektlər hədəfə alınmır. Həmin dövrdə Azərbaycan Silahlı Qüvvələri tərəfindən o istiqamətdə hər hansı atəş həyata keçirilməyib.

İkincisi, əgər raket zərbəsi olsaydı, kilsənin içərisindəki ikonalara ciddi zərər dəyərdi. Amma şəkillərdən görünür ki, ikonalara zərər yetirilməyib.

Üçüncüsü, Ermənistan ilk dəfə bu zərbənin guya F-16 təyyarəsindən endirildiyini, aviabomba olduğunu, sonra isə raket zərbəsi olduğunu iddia etməyə başladı. Azərbaycan Silahlı Qüvvələrinin inventarında F-16 təyyarəsi yoxdur.

Göründüyü kimi, Ermənistan tərəfi hər dəfə yalanlar ifşa olunanda yeni uydurmalara əl atmağa başlayır. Bu hal Ermənistanın növbəti təxribatı, Azərbaycana qarşı informasiya hücumu cəhdidir. Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzünə dini don geyindirilməsi qəbuledilməzdir. Bununla Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycan xalqına məxsus maddi-mədəni irsi məhv etmək, məscidləri və dini abidələri dağıtmaq siyasətini ört-basdır etmək istəyir. Bu günlərdə Ermənistan tərəfindən Beyləqan şəhərində məscidə, Gəncə şəhərində İmamzadə kompleksinə raket atılıb.

Azərbaycan Respublikası dünyanın bir çox yerlərində, o cümlədən Vatikanda xristian dini abidələrinin bərpası layihələrini həyata keçirib. Bütün dünya xristianlarına bir daha öz hörmət və rəğbətimizi ifadə edirik. Torpaqlarımız işğaldan azad olunduqdan sonra həmin ərazilərdəki bütün mədəni və dini abidələr təyinatına uyğun olaraq bərpa olunacaq".

# Azərbaycan XİN Ermənistana mülki aviasiya vasitəsilə silah daşınması ilə əlaqədar Beynəlxalq Mülki Aviasiya Təşkilatına müraciət edib



***Ermənistan tərəfindən humanitar yardım adı altında mülki aviasiya vasitəsilə bu dövlətə aid təyyarələrlə oraya silahların daşınması həyata keçirilir. Bu barədə AZƏRTAC-a Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.***

Bildirilib ki, bu məqsədlə Ermənistan hökumətinin qeydiyyatında olan təyyarələrdən və xarici ölkələrə səfər adı altında rəsmi səfərlərdən istifadə olunur. Həmçinin Ermənistan Fövqəladə Hallar Nazirliyinin guya bu ölkəyə humanitar yardım gətirməsi adı altında bu kimi silah qaçaqmalçılığı həyata keçirilir. Burada, xüsusilə raket sistemlərinin və digər silahların daşınması həyata keçirilir.

Vurğulanıb ki, 1944-cü ildə Çikaqoda qəbul edilmiş Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın 4-cü maddəsinə görə, Konvensiyaya üzv olan hər bir dövlət mülki aviasiyadan Konvensiyaya uyğun olmayan məqsədlər üçün istifadə etməməlidir. Konvensiyanın 44-cü maddəsinə əsasən, bütün dünyada beynəlxalq mülki aviasiyanın təhlükəsiz və tənzimlənən inkişafının təmin edilməsi, hava gəmilərinin sülh məqsədilə istismarının təşviq edilməsi Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) əsas məqsədlərindən biridir.

"Bununla əlaqədar olaraq, məsələnin araşdırılaraq müvafiq tədbirlərin görülməsi üçün tərəfimizdən Beynəlxalq Mülki Aviasiya Təşkilatına müraciət edilib", - deyə məlumatda qeyd olunub.

## Müdafiə Nazirliyi: Ermənistandan Mingəçevir istiqamətində atılan raket havada vurulub




Ermənistan ərazisindən Mingəçevir şəhəri istiqamətində atılan ballistik hədəf Azərbaycanın hava hücumundan müdafiə sistemləri tərəfindən aşkarlanaraq 20 kilometrdən artıq hündürlükdə məhv edilib. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

## Ermənistan ordusunun "Qrad" sistemləri məhv edilib

Azərbaycan Ordusu bölmələrinin keçirdiyi döyüş əməliyyatları nəticəsində düşmənin xeyli sayda "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib. AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla "Qrad" sistemlərinin məhv olunması görüntülərini təqdim edir.



# “Bizim məqsədimiz xalqımızı, ölkəmizi və öz torpağımızda yaşamaq hüququmuzu müdafiə etməkdən ibarətdir”

## *Prezident İlham Əliyevin “CNN International” televiziya kanalının “The Connect World” verilişində müsahibəsi yayımlanıb*

***Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “CNN International” televiziya kanalının “The Connect World” verilişində müsahibəsi yayımlanıb. AZƏRTAC müsahibəni təqdim edir.***



**-Mən Ermənistan prezidenti ilə danışdım və o, mənə dedi ki, bu münaqişə əvvəlki toqquşmalardan kəskin şəkildə fərqlənir. Çünki Türkiyə Azərbaycana açıq şəkildə dəstək göstərir. Üstəlik, o, mənə dedi ki, Türkiyə öz zabitləri, generalları, muzdluları, terrorçu cihad döyüşçüləri ilə Dağlıq Qarabağda döyüşmək üçün Azərbaycana minlərlə adam gətirib. Türkiyə öz hərbi gücü ilə guya müəyyən beynəlxalq logistik strukturları qorumaq üçün orada olduğunu deyir. Azərbaycanda hazırda hər hansı bir türk qüvvələri və ya türk avadanlığı varmı?**

-Bəli, türk avadanlığı var. Türk qüvvələri yoxdur. Səmimi desəm, Ermənistan prezidentinin dünyaya mesaj ünvanlamaq üçün CNN vasitəsilə şayiə yaymaq məqsədilə bu imkandan istifadə etməsi məni təəssüfləndirir. Mən bunu başqa cür adlandıra bilmirəm, çünki sizin mənə təqdim etdiyiniz kimi, onun dedikləri, mən onun dediklərini görməmişəm, lakin mənim sizdən eşitdiklərim tamamilə yanlışdır, bu, yanlış informasiyadır. Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır” ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı. Bu da münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasından ibarətdir ki, bu ölkələr döyüş meydanında onlara kömək etsinlər. Mən, həmçinin Ermənistanın prezidentinə 1990-cı illərin əvvəlində Ermənistan bizim torpaqları işğal etdikdə onun arxasında kimin durduğunu xatırlatmaq istəyirəm. Bizim torpaqlarımızı işğal etmək üçün onlara kimlərin kömək göstərdiyinə dair bizdə kifayət qədər sübut var. Buna görə Ermənistan tərəfindən “Azərbaycana kimsə kömək edir” demək tamamilə səhv və yanlış informasiyadır, biz bunu rədd edirik.

**-Siz dediniz ki, Azərbaycanda türk avadanlığı var, hansı növ türk avadanlığı var cənab Prezident?**

-Silahlar, türk silahları. Təkcə türk silahları yox, rus, İsrail, Belarus, Ukrayna silahları və sair. Çünki bu gün bizdə hərbi texnikanın satınalma coğrafiyası daha da genişlənir və biz bunlara görə pul ödəyirik. Ermənistanın silahları necə və haradan əldə etməsinə nəzər salsanız görərsiniz ki, onlarda olan silahlara görə onlar ödəniş etmək imkanında deyillər. Çünki bu, milyardlarla dollardır və kasıb ölkə üçün bu, mümkünsüzdür. Onlar öz müttəfiqlərindən silahları pulsuz əldə edirlər, biz silahlara ödəniş edərək onları alırıq.

**-Yaxşı, icazənizlə Sizə bu sualı verim. Biz ən azından sizin bazalarınızın birində türk F-16 qırıcı təyyarəsinin olmasına dair peyk təsvirlərini görmüşük. Siz F-16 qırıcı təyyarələr almamısınız. Beləliklə, Azərbaycan üçün güclü dəstəyi nəzərdə tutan F-16 qırıcı təyyarələrin yerdə olması doğrudurmu?**

-Siz yerdə dedikdə mən sizinlə razıyam. F-16 qırıcı təyyarələr Azərbaycanda hərbi təlimlərdə iştirak etmək üçün gəlmişdi. Keçən il Azərbaycan və Türkiyənin birgə 10 hərbi təlimi olmuşdur. Türkiyə bizim müttəfiq ölkədir və burada hərbi təlimlərin, o cümlədən Hərbi Hava Qüvvələrinin iştirakı ilə hərbi təlimlərin keçirilməsi adət olunan haldır. Yeri gəlmişkən, bu il pandemiya səbəbindən bizdə yalnız iki hərbi təlim keçirilmişdir. Onlardan biri Ermənistanın bizə hücum etməsindən əvvəl baş vermişdir. Beləliklə, F-16 qırıcı təyyarələr yerdədir, onlar uçuş etmirlər, onlar heç bir şəkildə hər hansı bir döyüşdə iştirak etmirlər. Yeri gəlmişkən...

**-Siz F-16 qırıcı təyyarələrin istifadə olunmamasını birmənalı şəkildə deyirsiniz?**

-Mən bunu birmənalı şəkildə deyirəm və hətta sizə bir erməni feyk xəbəri haqqında da söyləmək istəyirəm. Toqquşmaların ilk günlərində onlar türk F-16 qırıcı təyyarəsinin erməni Su-25 təyyarəsini vurduğunu demişdilər. Bu, feyk xəbərdir və bizi bunda günahlandıranlar indi bizdən üzr istəməlidirlər, çünki hər kəs bunun feyk xəbər olduğunu bilir. F-16 qırıcı təyyarələr buradadır, lakin onlar sizin də düzgün qeyd etdiyiniz kimi, yerdədir.

-Bu uzunmüddətli münaqişənin 1990-cı illərdən bəri həll yolunu axtaran ATƏT-in Minsk qrupuna Fransa, Amerika Birləşmiş Ştatları və Rusiya həmsədrlik edirlər. Fransanın xarici işlər naziri xüsusi olaraq xəbərdarlıq etmişdir ki, Türkiyənin Azərbaycanın arxasında durması bu münaqişənin beynəlxalq münaqişəyə çevrilməsini risk altına atır. Siz deyirsiniz ki, Türkiyə sizə dəstək göstərir, lakin bu dəstəyin münaqişənin daha da pisləşməsinə gətirib çıxaracağını deyən fransızlara sözünüz nədir?

-Mən bununla razı deyiləm. Dediyim kimi, Türkiyə regionda və xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyətdə sabitləşdirici rol oynayır. Hər bir ölkənin tərəfdaşı və ya müttəfiqi ola bilər. Azərbaycan və Azərbaycan xalqı Türkiyə kimi tərəfdaşa, müttəfiqə və qardaş ölkəyə malik olmaqdan çox xoşbəxtdir. Biz Ermənistanın Fransanı özünə müttəfiq hesab etməsinə etiraz bildirmirik və Fransa hazırda Ermənistana ən çox dəstək göstərən ölkədir. Eyni zamanda, biz görürük ki, müttəfiqlərin seçilməsi ölkələrin özündən asılıdır. Məsələn, Fransanın xarici işləri naziri Rusiyanın Ermənistana pulsuz silah verərək onu dəstəkləməsindən narahat deyil və o, bunun münaqişəni beynəlxalq bir münaqişəyə çevirəcəyini düşünmür. Lakin Türkiyə legitim, siyasi dəstəyini ifadə etdikdə bu, narahatçılıq yaradır. Səmimi desəm, bir NATO ölkəsinin digər NATO ölkəsinə qarşı belə hərəkət etməsini başa düşə bilmirəm. NATO-ya üzv ölkələr müttəfiq olmalıdırlar, lakin biz bunu görmürük.

**-Hazırda sizin yürütdüyünüz kampaniyanın məqsədlərini açıq şəkildə bəyan edə bilərsinizmi?**

-Bizim məqsədimiz xalqımızı, ölkəmizi və öz torpağımızda yaşamaq hüququmuzu müdafiə etməkdən ibarətdir. Sentyabrın 27-də Azərbaycanın hərbi mövqelərinə, şəhər və kəndlərimizə artilleriya atəşi açan Ermənistan olmuşdur. Toqquşmalar gedən günlərdə Ermənistan ordusu tərəfindən 31 nəfər mülki şəxs qətlə yetirilmişdir, demək olar ki, 200 nəfər yaralanmışdır, mindən çox ev dağıdılmış və ya onlara ciddi ziyan dəymişdir. Biz cavab verməli idik, özümüzü müdafiə etməli idik. Bizim cavabımız Ermənistan üçün çox həssas və ağrılı oldu. Onlar çox ciddi məğlubiyyət acısını yaşadılar, onlar bizdən qaçdılar, biz ərazimizin bir hissəsini azad etdik, biz işğaldan azad olunmuş ərazilərə milli bayrağımızı sancdıq. Biz ərazi bütövlüyümüzü bərpa edirik və biz haqlıyıq. Biz öz torpağımızda savaşırıq, Ermənistan digər ölkənin torpağında vuruşur.

**-Hərbçilər arasında nə qədər itkiniz var?**

-Hərbçilər arasında itkilərə gəldikdə, mən artıq bu barədə demişəm. Biz toqquşmaların aktiv fazası bitdikdən sonra bu məlumatı açıqlayacağıq.

**-Siz bütün Dağlıq Qarabağı, mübahisə predmeti olan bütün torpaqları geri götürmək niyyətindəsiniz?**

-Biz Dağlıq Qarabağdan və sabiq Dağlıq Qarabağ muxtar vilayətini əhatə edən yeddi rayondan danışırıq. Çünki Ermənistan nəinki təkcə Dağlıq Qarabağı işğal edib və muxtar vilayətin əhalisinin 25 faizini təşkil edən bütün azərbaycanlıları oradan qovub, eyni zamanda, əhalisinin sayı 700 min olan Azərbaycanın yeddi rayonunu işğal edib. Beləliklə, bizim əsas məqsədimiz bu əraziləri azad etmək və azərbaycanlı məcburi köçkünlərin geri qayıtmasına imkan yaratmaqdır. Dağlıq Qarabağa gəldikdə, biz hesab edirik ki, - bu, dəfələrlə rəsmi şəkildə bəyan olunmuşdur, - müharibə bitəndən, işğalçı qüvvələr çıxarıldıqdan sonra multietnik əhalisi olan istənilən digər ölkədə olduğu kimi, Dağlıq Qarabağdakı ermənilər və azərbaycanlılar yan-yana yaşayacaq və əminəm ki, bir gün onlar bir-birinə yaxşı qonşu olacaqlar.

**-Ermənistan prezidenti sizin qoşunların Dağlıq Qarabağdan çıxarılması ilə bağlı vaxt cədvəlinin müəyyən olunmasına dair tələbinizin münaqişənizin “Dağlıq Qarabağ respublikası” ilə olduğu üçün onlara təqdim edilməli olduğunu mənə deyib. O təkid edir ki, Dağlıq Qarabağda ermənilərin min illər boyu yaşadığına görə əhalinin 95 faizi ermənilər olub. Siz deyirsiniz ki, Qarabağ Azərbaycandır, lakin etnik ermənilərin qorxularına dair nə deyə bilərsiniz?**

-Əvvəla...

-Bir dəqiqə cənab, Azərbaycan hökuməti torpaqları geri götürsə, onlar etnik təmizləməyə məruz qala bilərlər.

-Mən başa düşürəm. Bu gün Azərbaycanda minlərlə erməni ölkəmizin müxtəlif şəhərlərində, əsasən paytaxt Bakıda yaşayır. Bizim ikinci ən böyük şəhərimiz olan Gəncəyə hücum üçün ermənilərin istifadə etdiyi uzunməsafəli dağıdıcı mərmilərdən biri olan “Smerç” erməni qadının evinə düşüb. Beləliklə, bu gün Azərbaycanda sülh və ləyaqət içində yaşayan minlərlə erməni var. Lakin bütün azərbaycanlılar Ermənistandan qovulmuşdur. Ermənistan əhalisi 99 faiz ermənilərdən ibarətdir. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Erməni prezidenti yenə də yalan deyir.

*Ardı Səh. 6*

# “Bizim məqsədimiz xalqımızı, ölkəmizi və öz torpağımızda yaşamaq hüququmuzu müdafiə etməkdən ibarətdir”

## *Prezident İlham Əliyevin “CNN International” televiziya kanalının “The Connect World” verilişində müsahibəsi yayımlanıb*

Əvvəli-Səh-5

Bu gün Dağlıq Qarabağda əhalinin 95 faizi ermənilər deyil, əhalinin 100 faizi ermənilərdir. Çünki orada yaşayan 25 faiz azərbaycanlı əhali Ermənistan rejimi tərəfindən etnik təmizlənməyə məruz qalmışdır.

Mən təəssüf edirəm ki, belə mühüm vəzifə tutan şəxs yalanlar yayır. İnternetə baxın. XIX əsrin əvvəlində Azərbaycanın Qarabağ xanı ilə rus generalı arasında imzalanmış Kürəkçay sülh müqaviləsinə baxın. Erməni əhalisi haqqında heç bir şey deyilmir. Erməni əhali bizim torpağımıza Rus-İran müharibələrindən sonra Rusiya imperiyası tərəfindən regionun dini tərkibini dəyişdirmək məqsədilə köçürülüb. Bu, tarixi faktdır. Ermənistan prezidentinin dedikləri isə feykdir, tamamilə feykdir.

**-Mən qeyd etməliyəm, Sizin dediyinizə görə, Ermənistan prezidenti yalan və feyk məlumatlar yayır, o, Azərbaycanın və Sizin haqqınızda eyni şeyləri deyib.**

-İnternetə baxın, sənədlərə baxın. Siz kimin doğru danışdığını və kimin yalan danışdığını görəcəksiniz.

**-Mən deməliyəm, hazırda hər bir tərəf bir-birini təhqir edir. Azərbaycan beynəlxalq vasitəçiliyi necə qəbul edərdi və hərbi əməliyyatı dayandırardı? Sizin bu barədə son sözünüz nədir?**

-Bizdə 28 ildir ki, beynəlxalq vasitəçilik var. ATƏT-in Minsk qrupu 1992-ci ildən bu yana 28 ildir ki, faktiki olaraq passiv formada “fəaliyyət” göstərir. Bu vasitəçilik heç nəyə gətirib çıxarmadı. Bu vasitəçilik bu gün baş verənlərə gətirib çıxardı. Bu vasitəçilik Ermənistanı onlara məxsus olmayan əraziləri tərk etməyə məcbur etmək üçün yetərli olmadı.

-Siz bununla bağlı Vaşinqtonla təmasda olmusunuzmu? Tramp administrasiyası Sizə nə deyir? Əlbəttə ki, ABŞ Minsk qrupunun həmsədrlərindən biridir.

-Bizim ABŞ-la çoxşaxəli münasibətlərimiz var. Münasibətlərimiz bir çox sahələrdə çox uğurla inkişaf edir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə gəlincə, Minsk qrupunun həmsədri olan 3 ölkənin vasitəçilik etmək üçün eyni hüququ və eyni məsuliyyəti var. Bu ölkələrdən nümayəndələr gələndə, onlar hamısı birlikdə gəlir, 3 ölkənin nümayəndələri. Ona görə də onların fəaliyyətində heç bir fərq yoxdur. Lakin sözsüz ki, bir başa düşürük, bəzi ölkələr daha çox ermənipərəstdir, bəzi ölkələr hətta həddindən çox ermənipərəstdir.

-Sizdən soruşa bilərəm siz Vaşinqtonda kiminlə danışırsınız? Dövlət Departamenti, yoxsa Tramp administrasiyası ilə? Məsələn, Ermənistan prezidenti bizə Robert Obraynla danışdıqlarını söylədi.

-Düşünürəm ki, bu günlər ərzində Ermənistanın baş nazirinin danışmadığı yeganə insan hansısa uzaq adada qəbilə başçısıdır. O, hər kəsə zəng edib. O, Prezident Putinə 5 dəfə zəng edib. O, Prezident Makrona, bilmirəm, deyəsən 4 dəfə zəng edib. Kansler Merkelə zəng edib. Yalnız qəbilə başçısı qalıb. Mən ona məsləhət görürəm ona zəng edib Azərbaycandan şikayət etsin ki, o, Azərbaycanın dağıtdığı yazıq, zavallı Ermənistana kömək etmək üçün öz qəbiləsindən bəzi adamları göndərsin.

**-Sual bu deyildi, cənab. Sual belə idi ki, Siz Vaşinqtonda kiminlə danışırsınız? Dövlət Departamenti, yaxud Tramp administrasiyası ilə?**

-Biz administrasiya ilə danışırıq. Biz Dövlət Departamenti ilə danışırıq. Əslində, onlar bizimlə əlaqə saxladılar. Mən Xarici İşlər Nazirliyimizə, Administrasiyama bizə zəng edən, mövqeyini ifadə etmək istəyən və necə irəliləməklə bağlı fikirlərini ifadə edən hər kəslə təmasda olmaları üçün göstərişlər vermişəm. Lakin faktiki olaraq, bunun Dövlət Departamenti və ya Ağ Ev olmasının heç fərqi yoxdur. Çünki bizim üçün bu, istənilən halda ABŞ administrasiyasıdır.

**-Sizin fikrinizcə, Vaşinqtonun mövqeyi necədir?**

-Vaşinqtonun mövqeyi digər həmsədrlərin mövqeyindən fərqlənmir. Onlar həllin əsaslanmalı olduğu prinsipləri dəstəkləyirlər. Bu prinsiplərin əleyhinə olan Ermənistandır. Həmin prinsiplərdə deyilir ki, Dağlıq Qarabağ ətrafındakı ərazilər vaxtında Azərbaycana qaytarılmalıdır. Siz mənim qrafiklə bağlı bəyanatıma istinad edəndə, sənədlərdə olan məhz budur. Bunu mən icad etməmişəm. Qarşı çıxan Ermənistandır.

-Gəlin, onda Rusiyanın mövqeyinə nəzər salaq. Çünki indi müzakirə etdiklərimizdən Vaşinqtonun mövqeyinin necə olması mənim üçün aydın olmadı. Gəlin, Rusiyanın mövqeyinə nəzər salaq. Kremlin sözçüsü Dmitri Peskov dedi ki, “Biz regiondakı vəziyyətdən çox narahatıq. Hesab edirik ki, tərəflər atəşi dayandırmalı və danışıqlar masasına gəlməlidirlər”. Onlar sizin danışıqlar masasına oturmağınızı xahiş edirlər. Rusiya Prezidenti döyüşü faciə adlandırdı. Bildiyimə görə, çərşənbə günü Siz Vladimir Putinlə şəxsən danışdınız. O, Sizə nə dedi? Rusiya üçün burada qırmızı xətt haradadır?

-Mən Prezident Putinə oktyabrın 7-də onu ad günü münasibətilə təbrik etmək üçün zəng etdim. Mən bunu hər il edirəm. Eləcə də o. Hər il biz bir-birimizi ad günü münasibətilə təbrik edirik. Onun ad gününün bu hadisələrlə üst-üstə düşməyi bir təsadüf idi. Ona görə də əlbəttə ki, biz bu məsələni müzakirə etdik və bizim mətbuat xidmətimiz bununla bağlı press-reliz yaydı. Düşünürəm ki, mənim mətbuatda açıqlanandan daha çox nə isə deməyim doğru olmaz.

**-Kaş ki, deyərdiniz. Siz Moskvanın sülh danışıqları üçün müraciətini səciyyələndirməyə hazırsınızmı?**

-Biz sülh danışıqlarının tərəfdarıyıq. İcazə versəniz, sizə cəmi iki misal gətirərdim. Azərbaycan danışıqlar masasında konstruktiv tərəfdaşdır. Biz düşünürük ki, ABŞ, Rusiya və Fransa tərəfindən işlənib hazırlanmış prinsiplər həll üçün əsas olmalıdır. Ermənistan prezidenti bunları rədd edir. Üzr istəyirəm, Ermənistanın baş naziri bunları rədd edir. Çünki Ermənistanda hakimiyyətdə olan və mənim danışıqlar apardığım şəxs prezident deyil, baş nazirdir. Beləliklə, o dedi ki, “Qarabağ Ermənistandır”. Bu, danışıqları mənasız edir. Siz necə “Qarabağ Ermənistandır” deyə və əraziləri geri qaytarmaqla bağlı danışıqlar apara bilərsiniz? O dedi ki, Azərbaycan Ermənistanla deyil, Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu, formatın dəyişməsidir. Əgər Ermənistanın baş naziri uçduğu göylərdən yerə qayıtsa, biz danışıqlara hazırıq.

**-Başa düşdüyüm qədərilə, Rusiyanın mövqeyi belə deyil. Onlar deyir hər iki tərəf atəşi dayandırmalı və danışıqlar masasına gəlməlidir.**

-Atəşi başlayan ilk olaraq dayanmalıdır və biz də danışıqlar masasına qayıtmaq üçün eynisini edərik. Paşinyan rejimi danışıqları pozmaq üçün əlindən gələni etdi. Onlar bu bəyanatı verdilər, onlar iyulda bizə hücum etdilər, avqustda bizə hücum etdilər, sentyabrda bizə hücum etdilər. Onlar danışıqları pozmaq üçün hər şeyi edir. Biz hazırıq, onlar isə yox.

**-Əgər Siz dayanmasanız və onlar dayanmasa, sonra nə olacaq? Bu, bir çoxlarının daha geniş miqyaslı regional müharibəyə çevriləcəyi ilə bağlı narahat olduğu münaqişəni haraya aparacaq?**

-O, daha da gərginləşməməlidir. Mən bütün ölkələri bu vəziyyətdən kənar qalmağa çağırmışam. Bu, bizim Ermənistanla ikitərəfli məsələmizdir. Vasitəçilər var, onların mandatı var. Onların mandatı yerdə müdaxilə etmək deyil. Onların mandatı həll yolunu tapmaq üçün şərait yaratmaqdır. Əminəm ki, onlar mandatları çərçivəsində davam edəcəklər. Ermənistanın bu münaqişəni beynəlmiləlləşdirmək cəhdi çox səmərəsiz, destruktiv və bir çox ölkələr üçün təhlükəlidir. Ermənistan başa düşməlidir ki, işğal əbədi olaraq davam edə bilməz. Status-kvo dəyişdirilməlidir. Yeri gəlmişkən, prezidentlər, Fransanın sabiq prezidentləri, ABŞ-ın sabiq prezidentləri və Rusiya Prezidenti hamısı vəzifədə olarkən bəyanat vermişdilər ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Mən bunu dəstəkləyirəm, Ermənistan isə buna qarşı çıxır.

**-Mən “Amnesty International”ın yeni hesabatı ilə bağlı münasibətinizi öyrənmək istəyirəm. Hesabatda iddia edilir ki, onlar Azərbaycan qüvvələrinin İsrail istehsalı olan M095 DPICM kasetli mərmiləri atdığını müəyyən ediblər. CNN nə bu iddiaları, nə də partlayışların videosunu müstəqil olaraq yoxlaya bilməz. “Amnesty”nin iddialarına necə cavab verərdiniz?**

-Mən deyərdim ki, ermənipərəst və anti-Azərbaycan mövqeyinə görə sizin adını çəkdiyiniz təşkilatla bizim heç bir təmasımız yoxdur. Birincisi, bu, səhvdir, yanlışdır. İkincisi, mən onlara tövsiyə edərdim ki, kasetli bombaların bizim mülki şəxslərimizə qarşı necə istifadə olunduğuna baxsınlar. Onların “Smerç”dən, “Elbrus”dan, “Toçka U”dan, ballistik raketlərdən bizim şəhərlərimizə qarşı necə istifadə etdiyinə baxsınlar - Gəncə, Goranboy, Naftalan, Yevlax və digər şəhərlər Ermənistanın bombardmanı altındadır. Niyə “Amnesty International” yalnız bir tərəfi görür və ya görmək istəyir? Niyə onlar digər tərəfi görmürlər? Sual budur.

**-İcazə verin, bununla bağlı deyim. Siz qəti şəkildə deyirsiniz ki, kasetli silahlar Azərbaycan qüvvələri tərəfindən istifadə olunmayıb? Əgər belədirsə, müstəqil müşahidəçilərin bunu yoxlamasına icazə verməyə hazırsınızmı?**

-Bəli, biz bunu etməyə hazırıq. Biz, həmçinin Ermənistanın nə etdiklərini görmək üçün Ermənistanın müstəqil müşahidəçilərə necə icazə verəcəyinə də baxmağa hazırıq. Bu, birtərəfli deyil, ikitərəfli qaydada olmalıdır. Biz özümüzü müdafiə edirik. Biz bunu etməliyik. Lakin bizim hədəflərimiz yalnız hərbi obyektlərdir. Biz məhv etdiklərimizin demək olar ki, hamısını çox müasir avadanlıqlardan istifadə etməklə məhv edirik. Siz bunu internetdə tapa bilərsiniz. Bu, Türkiyənin tamamilə yeni, mükəmməl, heyrətamiz qırıcı dronlarıdır, tankları, topları, hərbi mövqeləri məhv edən digər avadanlıqlarıdır. Məqsədimizə çatmaq üçün bizim dediyiniz silahlardan istifadə etməyə ehtiyacımız yoxdur. Bizim hədəfimiz mülki şəxslər deyil. Bizim hədəfimiz işğalçılardır. Biz torpağımızı kimə məxsusdursa onlara qaytarmalıyıq.

-Beləliklə, sözlərə əlavə ediləsi bir şey yoxdur. Mən Sizdən konkret olaraq soruşuram. Siz kasetli silahların Azərbaycan qüvvələri tərəfindən istifadə olunduğunu qəti şəkildə inkar edirsiniz, elədirmi?

**-Bəli, mən bunu inkar edirəm. Mən sizdən soruşmaq istəyirəm. Siz bu sualı Ermənistan prezidentinə vermisinizmi?**

-Həmin vaxt bizdə belə məlumat yox idi.

-Məsələ də elə bundadır. Məsələ də elə bundadır ki, siz məndən soruşursunuz. Ondan soruşun. Soruşun ondan. Qoy “Amnesty International” ondan nə etdiklərini soruşsun.

-Biz mütləq ondan bəyanat verməsini xahiş edəcəyik. Mən Sizdən soruşuram.

-Ondan soruşun, mən artıq cavab verdim. Artıq cavab verdim. Xeyr! Ondan soruşun.

-Soruşaram. Təşəkkür edirəm,

> *“Müharibə bitəndən, işğalçı qüvvələr çıxarıldıqdan sonra multietnik əhalisi olan istənilən digər ölkədə olduğu kimi, Dağlıq Qarabağdakı ermənilər və azərbaycanlılar yan-yana yaşayacaq və əminəm ki, bir gün onlar bir-birinə yaxşı qonşu olacaqlar”*

### Fransa Prezidenti Emmanuel Makron Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edib



Oktyabrın 9-da Fransa Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Dövlət başçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyəti müzakirə ediblər.

# “Bu çirkin oyunda iştirak etməyin, yoxsa erməni xalqını məhvə apardığınıza görə gələcəyin lənəti üzərinizdə olacaq”

*Katalikos II Qareginə, dünya ermənilərinə, Qarabağda yaşayan ermənilərə Bakıda yaşayan ermənilərdən müraciət*

***Bakı şəhərində yaşayan ermənilər dünya ermənilərinin katalikosu II Qareginə, dünya ermənilərinə, Qarabağda yaşayan ermənilərə müraciət edib.***

Müraciətə on minlərlə erməni adından 17 şəxs imza atıb. Modern.az-a istinadla müraciəti təqdim edirik: Dünya ermənilərinin katalikosu II Qareginə, dünya ermənilərinə, Qarabağda yaşayan ermənilərə Bakıda yaşayan ermənilərin müraciəti

Bu gün Azərbaycanda on minlərlə erməni yaşayır. Burada dinindən, irqindən asılı olmayaraq, bütün insanlara eyni münasibət göstərilir, Konstitusiyanın öz vətəndaşlarına verdiyi hüquqlardan hamı bərabər yararlanır. Artıq 30 ildən çoxdur ki, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayır. Bu illər ərzində demək olar ki, davamlı olaraq sivil Azərbaycan vətəndaşları, hətta uşaqlar, qocalar Ermənistan tərəfindən atəşə məruz qalıb, qətlə yetirilib.

### Dünya ermənilərinin katalikosu II Qareginə müraciət edirik

Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin durdurulmasında, işğal edilmiş Azərbaycan torpaqlarının öz sahiblərinə qaytarılmasında öz nüfuzu və gücündən istifadə etsin. Nahaq qanların axıdılmasının qarşısının alınmasına dəstək olsun. Dünyada bütün dinlər insanların dinc, yanaşı, sülh içində yaşamasına xidmət edir. Bizim din xadimlərimiz də buna çalışmalı, dünya miqyasında barəmizdə formalaşmış mənfi imicin götürülməsinə səy göstərməlidirlər.

### Dünya ermənilərinə, ayrı-ayrı erməni lobbilərinə müraciət edirik

Dəstəyinizi insanların sülh içində yaşamasına yönəldin. Bu günə qədər heç bir müharibə insanlığa xeyir gətirməyib. Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində 1 milyondan artıq azərbaycanlı öz ev-eşiyindən qaçqın və köçkün düşüb.

Bu gün də Ermənistan işğalçılıq siyasətini davam etdirir. Bütün bunlar dünyada erməni xalqı barədə mənfi, insan düşməni, qaniçən fikri formalaşdırır. Xocalıda Ermənistanın azərbaycanlılara qarşı törətdiyi soyqırımı erməni tarixinə qara ləkədir və bizim üçün çox utancvericidir.

Niyə Ermənistan qonşu Azərbaycanla dinc, yanaşı yaşamaq istəmir, onun torpaqlarını işğal edir, hər gün azərbaycanlı uşaqları, qocaları raketlərin hədəfinə çevirir?






Son günlər Ermənistan Azərbaycanın Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Bərdə, Beyləqan, Ağcabədi, Şəmkir, Tovuz və digər yaşayış məntəqələrini raket atəşinə tutur. Atəş yalnız mülki azərbaycanlıların deyil, bu şəhərlərdə yaşayan müxtəlif xalqların rus, yəhudi, ləzgi, talış, o cümlədən ermənilərin də həyatını təhlükə altında qoyur. Gəncənin atəşə tutulması zamanı ciddi xəsarətlər almış milliyətcə erməni Karina Qriqoryan kimi...

Azərbaycan isə yalnız və yalnız öz ərazilərində antiterror əməliyyatı keçirir, öz tarixi torpaqlarını işğaldan azad etmək istəyir. Qarabağda yaşayan ermənilərə müraciət edirik...

Siz 30 il öncə indi yaşadığınız Azərbaycan torpaqlarında xoşbəxt idiniz. Maddi rifahınız yüksək idi, bütün insan hüquqlarınız qorunurdu. Çünki Azərbaycan ermənilərə daim öz vətəndaşı kimi yanaşıb. İndi isə Ermənistanın mafioz rəhbərliyi sizi öz oyununun qurbanına çevirib. Buna çox acıyırıq. Sizin də insan kimi yaşamaq haqqınız və imkanınız var, ancaq Ermənistan bunu sizdən alıb. Hələ də gec deyil, ayılın, vasitəyə çevrilməkdən imtina edin. Azərbaycan sizin təhlükəsizliyinizdən tutmuş bütün hüquqlarınızı qoruyacaq. Buna bariz misal bizik.

### Erməni analara müraciət edirik...

İndi dünyada hər kəs, o cümlədən siz də yaxşı bilirsiniz ki, işğal edilmiş Xankəndi, Şuşa, Xocalı, Ağdərə, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan, Qubadlı, Füzuli, Cəbrayıl, Xocavənd Azərbaycanın tarixi əraziləridir.

Övladlarınızın Azərbaycan torpaqlarında ölməsinə göz yummayın, axı onları hansısa qüvvələrin oyununun qurbanı olması üçün dünyaya gətirməmisiniz.

Kimlərsə var-dövlət, vəzifə sahibi olacaq, əvəzində siz övladsız qalacaqsınız. Övladlarınızı Azərbaycan torpaqlarında hərbi xidmətdən geri çağırın. Azərbaycanın torpaqları azad edilsin. Bu çirkin oyunda iştirak etməyin, yoxsa erməni xalqını məhvə apardığınıza görə gələcəyin lənəti üzərinizdə olacaq.

# Ermənistanda əsgər valideynlərinin etirazı: Paşinyan gəldiyi kimi gedəcəyindən qorxur

Sentyabrın 27-dən başlayaraq əks-hücum əməliyyatını uğurla icra edən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr vurmaqda davam edir, 30 ilə yaxındır işğal altında olan torpaqlarımızın bir hissəsində artıq üçrəngli bayrağımız dalğalanır. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı videogörüntülərdən də düşmənin çoxlu sayda canlı qüvvəsinin və hərbi texnikasının darmadağın edildiyini müşahidə etmək olar.

Azərbaycan Ordusu ilə döyüşlərdə uğursuzluqlar, verilən itkilər düşməni sarsıdır və geri çəkilməyə məcbur edir. Ermənistan rəhbərliyi də bu məğlubiyyətin acı nəticələrini görür.

AZƏRTAC xəbər verir ki, Ermənistanda sosial şəbəkələrdə də artıq kütləvi şəkildə müharibəyə zorla aparılanların, ölənlərin, itkin düşənlərin şəkilləri paylaşılır. İtkin düşən döyüşçülərin valideynləri, qohumları, yaxınları məlumatsız olduqlarını bildirir, onların tapılması üçün kömək istəyirlər. Bu cür kütləvi etirazların gündən-günə çoxaldığını görən Ermənistan rəhbərliyi isə uzun müddət itkiləri gizlədə bilməyəcəklərini artıq başa düşür.

Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Artsrun Ovannisyan sosial şəbəkələrdə hərbçilərin taleyi ilə bağlı paylaşımların çox olduğunu etiraf edərək deyir: “Bəzi vətəndaşlar bu günlərdə oğullarının fotolarını sosial mediada dərc edərək onların tapılmasına kömək istəyir. Münaqişə bölgəsində şiddətli döyüşlər davam edir. Bu da öz növbəsində, həlak olanların cəsədlərinin tapılmasını çətinləşdirir. Bu savaş tamamilə fərqlidir, ilk müharibədən və 2016-cı ilin Aprel döyüşlərindən fərqli olaraq bir kabusdur. Üzr istəyirik və buna anlayışla yanaşmağınızı xahiş edirik”. Bu açıqlamadan da görünür ki, düşmən ölkə hərbi texnika ilə yanaşı, canlı qüvvə sarıdan da kifayət qədər itkilər verirlər.







Əlbəttə, Paşinyan hökuməti də yaxşı başa düşür ki, müharibədəki məğlubiyyət, itkilərin çox olması onun hakimiyyətdəki ömrünü daha da qısaldacaq və sosial şəbəkələr üzərindən başlayan bu etirazlar bir qədər sonra meydanlarda davam edəcək. Görünən odur ki, Paşinyan hakimiyyətə gəldiyi kimi də gedəcək. Azərbaycan dəfələrlə ən yüksək səviyyədə bəyan edib ki, erməni əsgərlər ölmək istəmirlərsə Azərbaycan torpaqlarından çəkilsinlər, bizim ərazilərimizdə hərbi qulluqdan imtina etsinlər. Əgər Ermənistan hakimiyyəti doğrudan da əsgərlərinin ölməsini istəmirsə, işğal etdiyi ərazilərimizi dərhal boşaltmalıdır. Çünki Azərbaycan xalqı, əsgəri öz torpaqlarında vuruşur, öz ərazi bütövlüyü uğrunda müharibə aparır və onun yolu haqq yoludur.

### Azərbaycan Hakimlər Assosiasiyalarının İttifaqı Beynəlxalq Hakimlər Assosiasiyasına bəyanat göndərib



Azərbaycan Respublikası Hakimlər Assosiasiyalarının İttifaqı Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları və cəbhədə yaranmış hazırkı vəziyyətlə bağlı bəyanat qəbul edərək, sıralarında 100-ə yaxın təşkilatı birləşdirən Beynəlxalq Hakimlər Assosiasiyasının üzvlərinə göndərib.

Hakimlər Assosiasiyalarının İttifaqından AZƏRTAC-a bildirilib ki, bəyanatda Ermənistanın işğal siyasəti nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış və tarixən Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik yeddi rayonun zəbt edildiyi, 1992-ci ilin fevralında Xocalı şəhərində azərbaycanlı dinc əhaliyə qarşı misli görünməmiş qırğın törədildiyi, mülki əhaliyə qarşı etnik təmizləmə aparılaraq bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi qeyd olunub. Münaqişənin sülh yolu ilə həlli üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların Ermənistan rəhbərliyinin qeyri-konstruktiv yanaşması səbəbindən bu günədək uğursuz olduğu bəyan edilib, Ermənistanın silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını nəzərdə tutan BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qətnamə və qərarlarının açıq şəkildə yerinə yetirilmədiyi diqqətə çatdırılıb.

Ermənistanın silahlı qüvvələrinin sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini, eləcə də yaşayış məntəqələrini intensiv atəşə tutaraq təmas xətti boyunca ölkəmizə qarşı genişmiqyaslı hərbi təxribatlara başladığı, buna cavab olaraq Azərbaycan Ordusunun özünümüdafiə hüququna və beynəlxalq humanitar normalara əsaslanaraq, əks-hücum əməliyyatları həyata keçirdiyi qeyd edilib.

Vurğulanıb ki, Ermənistan tərəfindən təmas xəttindən 50-250 kilometr uzaqlıqda yerləşən yaşayış məntəqələrimizin davamlı olaraq atəşə tutulması nəticəsində azərbaycanlı dinc mülki əhali arasında həlak olan və müxtəlif dərəcəli xəsarət alanlar var. Həmçinin əhalinin çoxsaylı mülki obyektlərinin, o cümlədən xüsusi mülkiyyəti, su anbarı və elektrik stansiyası, enerji boru kəmərlərinin (Bakı-Tbilisi-Ceyhan boru kəməri və Cənubi Qafqaz Boru Kəməri) atəşə tutulduğu, nəticədə çoxsaylı infrastruktur obyektlərinin dağıdıldığı qeyd olunub. Həmçinin Tərtər Rayon Məhkəməsinin inzibati binasına ciddi ziyan dəydiyi, hakiminin isə yaralandığı xüsusilə diqqətə çatdırılıb.

Bəyanatda Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının və bütün məcburi köçkünlərin hüquqları təmin olunmaqla öz doğma torpaqlarına qayıtmalarının vacibliyi və bununla da bölgədə həqiqi və davamlı sülhə kollektiv şəkildə nail olmağın mümkünlüyü vurğulanıb.

Sonda mövcud vəziyyətlə bağlı Beynəlxalq Hakimlər Assosiasiyası üzvlərinin obyektiv və ədalətli mövqe nümayiş etdirərək insan hüquq və əsas azadlıqlarının qorunmasına yönələn çoxtərəfli səyləri dəstəkləyəcəklərinə əminlik ifadə edilib.

# Vətəndaşlar Prezidentə ya
# Sizi dəstəkləyir, uzaqgörən



***Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə qarşı həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları xalqımızda qələbə əzmini, ruh yüksəkliyini daha da artırıb. Bu, Azərbaycan vətəndaşlarının Prezident, Ali Baş Komandan İlham Əliyevə göndərdiyi təbrik və təşəkkür məktublarından da aydın görünür.***

Qeyd edək ki, Azərbaycan vətəndaşlarından əlavə bir sıra xarici ölkələrin vətəndaşları da dövlətimizin başçısına məktublar ünvanlayırlar.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

Türkiyənin Ədirnə şəhərindən Rəcəb Gürkan, Səlcuq Çakır, Mehmet Çapoğlu, Necameddin Attay və İsmayıl Dəmirxan dövlətimizin başçısına yazırlar: "Cənab Ali Baş Komandan, Ədirnə Bələdiyyə Məclisindəki siyasi partiyaların qrup rəhbərləri kimi sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin atəşkəsi və beynəlxalq hüququ pozaraq Azərbaycanın mülki yaşayış məntəqələrini və əsgərlərini ağır silahlarla hədəf alan hücumlarını qınayırıq.

Bu hücum və Tovuz hadisələri bir daha göstərdi ki, Ermənistan bölgədə daimi sülh və sabitliyin bərqərar olmasına ən böyük maneədir. Azərbaycanın beynəlxalq hüquqdan irəli gələn özünümüdafiə hüququ çərçivəsində xalqını qorumaq və ərazi bütövlüyünü bərpa etmək cəhdlərini dəstəkləyirik.

30 ildir ki, Qarabağ Ermənistanın işğalı altındadır. Biz də Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və ATƏT-in qərarlarına uyğun olaraq bu haqsız işğala sülh yolu ilə son qoyulmasının tərəfdarıyıq. Lakin görünən odur ki, Azərbaycanın sülh siyasəti birtərəflidir.

Beynəlxalq ictimaiyyəti uzun müddət Ermənistanın işğalından və hücumlardan əziyyət çəkən Azərbaycanın yanında olmağa dəvət edirik. Bu münasibətlə Bələdiyyə məclisimizdəki siyasi partiyalar olaraq, şəhid azərbaycanlı qardaşlarımıza rəhmət, qazilərimizə şəfa diləyir, millətimizin həmrəylik iradəsini bir daha vurğulayırıq".

Tovuz sakini Kamran Əliyev: "Hörmətli cənab Prezident, göstərdiyiniz qətiyyət və cəsarətə, Azərbaycan xalqının yolunda fədakar əməyinizə görə Sizə dərin minnətdarlığımızı və sevgimizi bildiririk. Rəhbərlik etdiyiniz bir ölkədə yaşamağımızdan qürur duyuruq. Bilirik ki, indiki dövr Sizin üçün qayğılı vaxtdır, amma böyükdən kiçiyə hamımız, bütün vətəndaşlarımız Sizinlə bir olduğumuzu diqqətinizə çatdırmaq istəyirik.

Zəbt edilmiş torpaqlarımızın qaytarılmasını 30 ildir ki, gözləyirdik və indi şərəfli bir yoldayıq. Xalq bu mübarizədə sonadək Sizinlədir. İnşallah, qələbəmizi sona çatdıracağıq. Bütün dualarımız Sizinlə və qəhrəman əsgərlərimizlədir".

Sumqayıt şəhərindən Nadir İsmayılov yazır: "Hörmətli cənab Prezident, mən keçən əsrin sonlarında erməni vəhşiliyinin törətdiyi hadisələrin canlı şahidiyəm. Torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə könüllü iştirak edərək bu vəhşiliyin qarşısının alınmasında əməyim olub. Yaralanıb əlil olsam da, işğal altındakı torpaqları geri qaytarmaq üçün düşmənlə yenidən vuruşmaq əmrini illərdi gözləmişəm və bu imkanı bizə verdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən buna çox sevinirəm, Allah Sizdən razı olsun. Hər an döyüşə getməyə hazır olduğumu Sizə bildirmək istəyirəm.

Cənab Ali Baş Komandan, göydə Allah, yerdə Sizin komandanlığınızla bizim mərd, igid övladlarımız, qardaşlarımız yaxın günlərdə Azərbaycanımızın üçrəngli bayrağını döyünən ürəyimiz olan Xankəndinin, Şuşanın ən hündür yerlərində dalğalandıracaqlar və Vətənimizin yağı düşməndən azad olub rahat və dərin nəfəs almasını görəcəyik. Çox sağ olun, cənab Prezident. Allah Sizə yar olsun".

Astara sakini Məmmədsəfa Cəbiyev: "Möhtərəm cənab Prezident, Siz Azərbaycan tarixində heç bir zaman silinməyəcək tarix yazdınız. O tarix ki, o zirvəni Sizə qədər heç kim fəth etməmişdir. Məhz Sizin uzaqgörən siyasətiniz nəticəsində doğma torpaqlarımıza olan 30 illik həsrətimizə bu günlərdə son qoyulmaqdadır. Ata-baba yurdumuzun hər qarışını şanlı Ordumuzun zəfərləri nəticəsində özümüzə qaytarır, illərdir işğal altında olan torpaqlarımızda milli bayrağımızı ucaldırıq. Bu tarixi məqamları göydə Allah, yerdə Siz bizə bəxş etdiniz, möhtərəm cənab Prezident. Siz həyatda ikən xalqımızın mənəvi atası adını qazandınız. Biz hamımız Sizin arxanızdayıq.

Yaşasın Azərbaycan Prezidenti!

Qarabağ Azərbaycandır!".

Qəbələdən Məhəbbət Rüstəmova yazır: "Möhtərəm cənab Prezident, doğma Azərbaycanın gözəl guşəsi olan Dağlıq Qarabağı və onun ətrafındakı rayonları zorla mənimsəyən mənfur düşmənin 30 ildir ki, işğalı altında olan torpaqlarımızın sülh yolu ilə qaytarılması üçün Siz əlinizdən gələni əsirgəmədiniz. Biz bunun canlı şahidləriyik. Lakin düşmənin fikri sülh deyil, müqəddəs torpaqlarımızı bizə unutdurmaq istəyi idi.

Sentyabrın 27-də ordumuzun əks-hücuma keçməsi barədə əmrinizi böyük sevinclə qarşıladıq. Məktəbimizin şagirdləri belə orduya yazılmaq, könüllü vuruşmağa hazırdırlar.

Müharibə gedən bu günlərimizdə Siz Azərbaycan xalqının cəsarətli lideri olduğunuzu bir daha sübut etdiniz. Sizin kimi güclü, müdrik, böyük siyasətçi, öz xalqını sevən Prezidentimiz olduğuna görə biz Allahdan çox razıyıq. Ordumuzun əldə etdiyi nailiyyətlər Sizin apardığınız uzaqgörən daxili və xarici siyasətdən irəli gəlir. Azərbaycan xalqı Sizə arxalanır.

Allah Azərbaycan Prezidentini, Ordumuzu, xalqımızı qorusun. Amin.

Qarabağ Azərbaycandır!".

Bakı şəhər sakini Şəmilə Məmmədova: "Cənab Ali Baş Komandan, Sizin komandanlığınızla qısa müddət ərzində əldə olunan uğurlar bir şəhid ailəsi kimi məni də qürurlandırdı. Otuz illik Qarabağ həsrətinə son qoymaq üçün gördüyünüz işlər tarixə yazılacaq, əsrlər boyu öyrəniləcək. Artıq illərlə gözlədiyimiz gün gəlib çatıb. Sizin uğurlu daxili və xarici siyasətiniz güclü Azərbaycan Ordusunu formalaşdırdı. Şübhə yoxdur ki, işğal altında olan torpaqlarımız Sizin siyasətiniz, ordumuzun gücü və xalqımızın dəstəyi sayəsində erməni təcavüzkarlarının tapdağından azad olunacaq. Qələbə Azərbaycanındır. Ümummilli lider Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi Sizinlə fəxr edirik.

Əziz Prezidentimiz, biz Sizə inanırıq, Sizinlə birlikdəyik. Allah Sizi, xalqımızı və Ordumuzu qorusun".

# zırlar: “Biz hamımız siyasətinizə inanırıq”

Gəncə şəhərinin sakini Ramil Əliyev: “Cənab Ali Baş Komandan, Gəncə şəhər sakinləri, təhsil işçiləri Sizin apardığınız bu siyasət yolunu dəstəkləyir, hər zaman Sizə güvənirlər. Sizin və ordumuzun sayəsində, İnşallah, torpaqlarımızı azad edəcəyik. Biz buna inanırıq. Allah Sizi və ordumuzu qorusun. Hər zaman Sizinləyik. Qarabağ Azərbaycandır!”.

Hacıqabul sakini Mehman Əmiraslanovun məktubunda deyilir: “Cənab Ali Baş Komandan, Azərbaycan torpaqlarının mənfur düşmənlərimizdən azad olunması yolunda uzun illər apardığınız xarici və daxili siyasətin nəticəsi olaraq atdığınız addımları bütün xalqımız kimi, bir təhsil işçisi olaraq mən də tam dəstəkləyirəm. Hamımızda dərin inam var ki, çox keçməz, ay-ulduzlu üçrəngli bayrağımız Sizin komandanlığınızla şanlı ordumuzun sayəsində xalqımızın yenilməzlik, məğrurluq simvolu olan Şuşada dalğalanar. Bir tarix müəllimi kimi şagirdlərimə bu günlərdə Sizin sayənizdə yazılan Azərbaycanın qəhrəmanlıq tarixi haqqında danışmağı, məlumat verməyi özüm üçün ən şərəfli iş hesab edirəm. Uğurlar, cənab Ali Baş Komandan. Qarabağ Azərbaycandır!”.

Lənkəran sakini Günəş Əliyeva: “Hörmətli cənab Ali Baş Komandan, uzun illərdir ki, Azərbaycanımızın Qarabağ bölgəsi işğal altındadır. 27 ildən sonra doğma torpaqlarımızın azad edilməsi ilə bağlı verdiyiniz əmr bütün azərbaycanlılar kimi mənim də ürəyimcədir. Hər birimiz Sizin aldığınız qərarları dəstəkləyir və yanınızda olduğumuzu demək istəyirəm. Bu çətin, eyni zamanda, şərəfli yolda Allah köməyimiz olsun. Allahın izni ilə yaxın zamanda bütün Azərbaycan xalqına böyük qələbə xəbəri verəcəyinizə inanır və həmin xəbəri səbirsizliklə gözləyirik. Yaşasın Azərbaycan əsgəri! Yaşasın cənab Ali Baş Komandan!”.

Cəbrayıl sakini Tərxan Xudiyev: “Cənab Ali Baş Komandan, Sizin uğurlu siyasətiniz və qüdrətli Azərbaycan Ordusunun rəşadəti sayəsində 27 illik işğaldan azad olunan, 218 təsərrüfatı, 805 sakini olan Quycaq kəndinin əhalisi adından yazıram.

Quycaq kəndi Qarabağın gözəl bir guşəsində yerləşmiş və ənənələri olan bir kənddir. Erməni işğalına qədər orada 170 ev və 700 sakin olub. Quycaq kənd orta məktəbi 34 nəfər professor və elmlər namizədi yetişdirib. Birinci Qarabağ müharibəsində kəndimiz dörd şəhid verib. Bu gün də müzəffər Azərbaycan Ordusunun sıralarında onlarla quycaqlı gənc Vətən uğrunda döyüşlərdədir.

Cənab Prezident, bu illər ərzində Vətən həsrətinə dözə bilməyib dünyasını dəyişənlərin sayı çoxdur. Siz Quycaq kəndinin işğaldan azad olunduğunu elan etdiyiniz an bütün kənd sakinlərini xoşbəxt etdiniz. Həmin gün dünyadan köçmüş Quycaq sakinlərinin ruhları da şad oldu.

Cənab Ali Baş Komandan, bu gün ayaqda olan 805 nəfər Quycaq sakini Sizin Ordunuzdur. Ağsaqqalından körpəsinə kimi hər bir Quycaqlı Ulu Öndərin və Sizin heykəlinizi artıq çoxdan qəlblərində ucaltmışlar.

Biz hamımız hər an Sizin bir əmrinizlə Azərbaycan Ordusunun ön cərgələrində yerimizi tutmağa hazırıq. Quycaq camaatı iki hadisənin intizarındadır: Uca bayrağımızın Şuşada dalğalanmasının və cənab Ali Baş Komandanın müzəffər bir Ordu rəhbəri kimi Azərbaycanın Milli Qəhrəmanı elan edilməsinin”.

Bakı şəhərinin sakini Vidadi Xəlilov: “Hörmətli cənab Prezident, qədim və zəngin tarixi, görkəmli elm və dövlət xadimləri ilə tanınan Cəbrayıl şəhərinin işğaldan azad olunması ilə əlaqədar cəbrayıllılara, bütövlükdə xalqımıza müraciətiniz, təbrikiniz məni, ailəmi, qohumlarımı və dostlarımı qəlbən sevindirdi. Çox sağ olun. Əzminiz, qüdrətiniz var olsun. Allah Azərbaycan xalqına böyük Qələbənin sevincini yaşamağı nəsib etsin. Allah Sizi qorusun”.

Naxçıvandan Şölə Süleymanova: “Xalqının məğrur, igid və əvəzolunmaz Ali Baş Komandanı, Sizin bu şücaətiniz qarşısında bütün varlığımızla ehtiramımızı bildiririk. Siz bir qəhrəmanlıq tarixi yazırsınız. Ulu öndərimiz Heydər Əliyevin və şəhidlərimizin ruhunu şad eləyirsiniz. Qələbə sevinci əsrlərboyu Azərbaycan xalqının ürəyində yaşayacaq silinməz izlər qoydu. Azərbaycan xalqına Sizin kimi parlaq bir günəş bəxş etdiyi üçün Ulu Öndərimizin yeri cənnət olsun. Biz Sizinlə öyünməyə haqlıyıq. Bütün varlığımızla Sizə bağlıyıq. Var olun. Allah Sizi düşmən fitnəsindən, bədnəzərdən qorusun”.

Sumqayıt şəhərindən Əvəz Həsənov: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə ordumuzun apardığı uğurlu əməliyyatlar nəticəsində torpaqlarımızın müəyyən bir hissəsi işğaldan azad olunub. Bu münasibətlə Sizi və xalqımızı təbrik edirik. Hörmətli cənab Prezident, biz Sizinlə fəxr edirik. İnanırıq ki, rəşadətli ordumuz Sizin rəhbərliyinizlə tezliklə bütün torpaqlarımızı işğaldan azad edəcək. Hörmətli cənab Prezident, Qubadlı rayonundan olan məcburi köçkünlər Sizin xarici və daxili siyasətinizi dəstəkləyir, ətrafınızda sıx birləşir. Xalqımızın rifahı naminə gördüyünüz bütün işlərdə Sizə yeni uğurlar arzulayırıq. Ulu Tanrı Sizi və ailənizi qorusun”.

Oğuz rayonundan İlqar Çələbiyev: “Möhtərəm cənab Prezident, bütün Azərbaycan xalqı kimi, mən də Sizinlə fəxr edirəm. Allah Sizə uzun ömür, cansağlığı versin. Sizin apardığınız uğurlu daxili və xarici siyasəti bəyənir və dəstəkləyirik. Siz bizim qürur mənbəyimizsiniz. Azərbaycan Ordusunun nail olduğu qələbələri bizlərə çatdıran zaman, gözlərinizdəki o sevinci görmək bizin üçün əvəzolunmaz bir duyğudur. Allah Sizin gözlərinizdən o sevinci heç zaman əksik etməsin. Mən və ailəm Sizə bu haqq yolunda yeni böyük uğurlar arzu edirik”.

Bakı sakini Sevda Həşimova: “Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə qüdrətli ordumuzun qəhrəmanlığı ilə son günlər işğal altında olan doğma torpaqlarımızın bir hissəsinin mənfur düşməndən azad edilməsi xəbərləri bizdə qürur hissi yaradır. Buna görə Sizə minnətdarıq və bu haqq yolunda bütün Azərbaycan xalqı Sizin arxanızdadır. İnanırıq ki, çox tezliklə Sizdən Şuşanın azad olunması xəbərini eşidəcəyik. Sizə və bütün xalqımıza Qələbə əzmi yaşamağı arzu edirəm. Allah Sizi və ailənizi qorusun. Var olun, cənab Ali Baş Komandan!”.

Şəmkirdən İlkin Musayev: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin Rusiya Federasiyasının Soçi şəhərində keçirilən Valday forumunda səsləndirdiyiniz “Qarabağ Azərbaycandır!” kəlməsi bu gün bir daha müzəffər Ordumuz tərəfindən öz təsdiqini tapmaqdadır. İşğal olunmuş ərazilərimizin erməni quldurlarından ard-arda təmizlənməsi Sizin məqsədyönlü və uzaqgörən siyasətinizin nəticəsidir. Cənab Ali Baş Komandan, Sizi əmin etmək istəyirəm ki, biz şəmkirli gənclər Ordumuzun qələbələrindən ruhlanaraq, hər an döyüşə hazırıq. Yaşasın Müstəqil Azərbaycan! Yaşasın cənab Ali Baş Komandan!”.

Füzulidən Məhərrəm Orucovun məktubunda deyilir: “Hörmətli Prezident, cənab Ali Baş Komandan, uzun illərdir ki, erməni qəsbkarlarının torpaqlarımızı işğal altında saxlaması xalqımızın, eləcə də Azərbaycan hökumətinin səbir kasasını doldurmuşdur. Son günlər işğal altında olan ərazilərimizin geri qaytarılması və beləliklə, ərazi bütövlüyümüzün bərpa olunması istiqamətində apardığınız daxili və xarici siyasəti dəstəkləyir və alqışlayıram. Hər an qələbə müjdəsi gözləyirəm. Bu gün, demək olar ki, siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir kəs Sizin ətrafınızda sıx birləşib. Seçdiyiniz yol haqq yoludur. Ən qısa zamanda Qarabağın azad olunması xəbərini gözləyirik. Siz xalqımızın qürur mənbəyisiniz. Allah Sizi qorusun”.

Gəncə şəhərindən Səbinə Əlizadə: “Əziz Prezidentim cənab İlham Əliyev, Sizi və müzəffər ordumuzu zəfərlər münasibətilə təbrik edir, bununla bağlı çox böyük minnətdarlığımı çatdırıram. Eşitdiyim hər zəfər xəbəri, inanın ki, məni sanki, göylərə qaldırır. Suqovuşanın qayıdışı, Cəbrayılın 27 illik həsrətinin sonu gələcək uğurlarımızın müjdəçisidir. Tarix hər zaman igidlər və ərənlər yetişdirir. Hansı igidlər ki, onlar, sözün əsl mənasında, tarix yazırlar. Siz, əziz Prezidentim, bu gün Türkün şanlı tarixini yazırsınız. Qoy, Tanrı Sizi və səngərdə olan igidlərimizi qorusun. Qafqazın incisi Qarabağımıza qayıdışa doğru, İnşallah. Biz Sizə və aslan ürəkli igidlərimizə güvənirik və inanırıq. Tanrı Sizləri qorusun”.

Qəbələ sakini Reyhanə Qəribova: “Cənab Ali Baş Komandan, son günlər ölkəmizdə baş verən hadisələr məni çox qürurlandırır. Sizin göstərişinizlə Ordumuz itirilmiş torpaqlarımızı işğaldan azad edərək xalqımıza qələbə sevinci bəxş edir. Bu münasibətlə Sizi və Azərbaycan xalqını təbrik edirəm.

Arzu edirəm ki, şanlı Ordumuz mənfur düşmənin əlində olan bütün torpaqlarımızı geri qaytarsın, hər bir məcburi köçkün soydaşımız dədə-baba yurdlarına qayıtsınlar.

Cənab Prezident, biz hamımız Sizi dəstəkləyir, Sizin uzaqgörən siyasətinizə inanırıq. İnanırıq ki, ən yaxın zamanda qələbə sevincini xalqa məhz Siz çatdıracaqsınız. Allah Sizi və əsgərlərimizi qorusun!

Yaşasın Azərbaycan, yaşasın Qarabağ!

Qarabağ Azərbaycandır!”.

Biləsuvar sakini İlqar Quliyevin məktubunda deyilir: “Cənab Ali Baş Komandan, biz Sizinlə fəxr edirik. Fəxr edirik ki, belə bir güclü Ordumuz var və hər gün yeni-yeni qalibiyyətlərə imza atır. Mənim qardaşım hazırda cəbhə xəttindədir. Özüm də könüllü gedib əsgər qardaşlarımla çiyin-çiyinə vuruşmaq şərəfinə nail olmaq istəyirəm.

Mənfur düşməni torpaqlarımızdan qovub çıxaracağımız, erməni faşistləri üzərində zəfər çalacağımız gün çox yaxındır. Bu zəfərin Sizin dilinizdən qürurla dünyaya elan ediləcəyi günü səbirsizliklə gözləyirik.

Ulu Tanrı Sizə, komandanlığınızla vuruşan mərd igidlərimizə yar olsun!”.

Bakı şəhər sakini Nuridə Babaşova: “Hörmətli cənab Prezident, Sizi salamlayır və Azərbaycanımızın yaralı yeri olan Qarabağımızın bəzi hissələrinin işğaldan azad edilməsinə görə minnətdarlıq edirəm. Allah Sizi qorusun. Biz daim Sizə güvənmişik və bu güvənimiz heç zaman boşa getməmişdir.

Bir azərbaycanlı qadın kimi son damla qanıma qədər vuruşmağa belə hazıram. Qarabağ bizimdir, bizim olacaq! Şəhidlərin qanı yerdə qalmayacaq. Şəhidlərimizin ailələrinə başsağlığı verirəm, valideynlərinin əllərindən öpürəm. Övladlarını isə bağrıma basaraq, Azərbaycan xalqına qələbə arzulayıram”.

Abşeron rayonunun sakini Turəxanım Qasımova: “Zati-aliləri, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə 30 illik həsrətə son qoyulur. Azərbaycan öz dədə-baba torpaqlarına qovuşur. Sevincimizin həddi-hüdudu yoxdur!

Yeni Azərbaycan Partiyası yaradılanda onun sıralarına daxil olmuş, ulu öndər Heydər Əliyev Naxçıvandan Bakıya gəldiyi zaman onu hava limanında qarşılayan ilk partiya üzvlərindən biri olmuşam. Bizim xalq olaraq bəxtimiz onda gətirib ki, tarixin ən çətin sınağında Heydər Əliyev kimi dühanı Tanrı xilasımıza yetirdi. Siz isə onun böyük siyasətini davam etdirərək ölkəmizin firavanlığını, əzəli torpaqlara böyük qayıdışımızı təmin edirsiniz.

Dünya Azərbaycan dövlətinin öz sözünün, haqqının sahibi olduğunu gördü. Şükürlər olsun ki, bizlər də bu tarixi anın şahidinə çevrilə bildik.

Azərbaycan xalqı bu gün hamılıqla Sizin yanınızdadır. Tanrı xalqımızı qorusun.

Var olun, Ali Baş Komandan!”.

Cəbrayıl sakini Təranə Kərimova yazır: “Hörmətli Ali Baş Komandan, bu günlər zəfər günüdür, biz şəhid analarının ürəyinə su səpilən gündür. İnanıram ki, şəhidlərimizin qisası alınacaq.

Mən şəhid Qəhrəmanov Ruhin Əşrəf oğlunun anasıyam, hazırda həyat yoldaşım və digər oğlum da döyüşlərdədi. Mən Sizə və qəhrəman əsgərlərimizə inanıram.

Tezliklə şanlı bayrağımızın Şuşada, Cıdır düzündə dalğalanacağına inanıram.

Bütün şəhid anaları adından Sizə və əsgərlərimizə minnətdaram. Allah Sizləri və əsgərlərimizi qorusun”.

Abşeron rayon sakini Kəmalə Quluyeva: “Hörmətli Prezident, mən Laçın rayonundan məcburi köçkünəm. Düşmən tapdağı altında olan doğma torpaqlarımız azad edildikcə qəlbim dağa dönür.

Allah Sizə cansağlığı versin, cənab Ali Baş Komandan. İnşallah, tezliklə qəhrəman əsgərlərimiz Azərbaycan bayrağını Laçında ucaldar. Mənim üçün bu, çox böyük sevinc olar.

Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır!”.

# Ermənistan: sonun başlanğıcı

***Ermənistanın "failed state" statusuna ən bariz nümunə bu ölkənin tarazlığı qaçmış tədiyə balansıdır. Ermənistan Cənubi Qafqazda tədiyə balansı ən gərgin olan ölkədir. Tədiyə balansı ölkə iqtisadiyyatının güzgüsüdür. Ermənistanın makroiqtisadi və maliyyə dayanıqlılığı, o cümlədən pul-məzənnə siyasəti "Ödəmələr balansının" vəziyyətindən birbaşa asılıdır. Ermənistanda uzun illər hökm sürən siyasi diktatura və daxili qeyri-sabitlik - qazanılmış iqtisadi çatışmazlıq sindromu yaradıb. Bu əlverişsiz biznes mühiti şəraitində xarici investorlar (qeyri-rezidentlər) tərəfindən kapital qoyuluşunun əlverişsizliyi Ermənistanın tədiyə balansında öz əksini tapır.***

AZƏRTAC İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Nicat Hacızadənin mövzu ilə bağlı şərhini təqdim edir.

N.Hacızadə bildirib ki, ölkənin coğrafi cəhətdən əlverişsiz mövqeyə sahib olması, qonşu dövlətlərə qarşı əsassız ərazi iddiaları Ermənistanı xarici ticarəti hərəkətə gətirən logistika və nəqliyyat dəhlizlərindən kənarda saxlayır. Bundan əlavə, ölkənin dağlıq əraziyə malik olması kənd təsərrüfatında bitki və bitkiçilik məhsullarının istehsalı və ixracını məhdudlaşdırır. Ermənistanda iqtisadi, coğrafi və siyasi "natamamlıq kompleks"ləri komplementarlıq təşkil edir və təkcə milli deyil, həm də regional təhdidlər yaradır. Ermənistanın siyasi rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar apardığı işğalçı siyasət tədiyə balansının bütün parametrlərinə, o cümlədən xarici sərmayə cəlbediciliyinə mənfi təsirlərini göstərir.

## Cari əməliyyatlar hesabının "xroniki xəstəliyi"

Beynəlxalq Valyuta Fondunun (BVF) açıqladığı statistikaya uyğun olaraq, Ermənistanda 2019-cu ilin cari hesablar balansının mənfi saldosu 987,5 milyon dollar təşkil edib. Belə ki, xarici ticarət balansının əmtəə və xidmət strukturunda mənfi 1,8 milyard dollar, ümumilikdə 3,6 milyard dollar kəsr qeydə alınıb. Statistik bazaya əsaslanan rəqəmlər Ermənistan iqtisadiyyatının COVID-19 pandemiyasına hazırlıqsız daxil olduğunu göstərir. Təsadüfi deyil ki, Ermənistan dünyada əhalinin hər 1 milyon nəfərinə düşən COVID-19 pandemiyasından ölənlərin sayına görə "ilk 25-liyə" daxildir və postsovet məkanında isə lider ölkədir. Pandemiya səbəbindən Ermənistanın fövqəladə hal qismində tibbi avadanlıqlar, dərman ləvazimatları alması cari əməliyyatlar balansının kəsrinin daha da artmasına birbaşa təsirini göstərəcək. Artıq Ermənistan Statistika Komitəsinin ilkin göstəricilərində tibbi avadanlıq və dərman ləvazimatları sifarişlərinin idxal strukturunda ön pillələrə çıxması müşahidə edilir. Habelə Ermənistanın pərakəndə ticarət dövriyyəsindəki sürətli artımı da sözügedən məhsullara tələbin uzunmüddətli olacağını planlaşdırır.

Ermənistan Statistika Komitəsinin verilənlər bazasına əsasən, 1991-ci ildən hazırkı zamana qədər sözügedən ölkənin xarici ticarət balansında müsbət saldo qeydə alınmayıb. Ölkənin iqtisadi potensialı səviyyəsinə müvafiq olaraq, son 5 il ərzində mənfi saldo aralığı 2-2,8 milyard dollar civarında qiymətləndirilib. Ermənistanın statistik qurumunun yaydığı məlumata görə, 2020-ci ilin yanvar-avqust aylarında xarici ticarət dövriyyəsi 10,2 faiz azalıb. Bundan əlavə, ticarət dövriyyəsi bu ilin aprel ayında 27,8 faizlik enişlə aşağı tavanı gördükdən sonra azalma səngiyib. Buna baxmayaraq, iyul ayında ixracın yenidən kəskin enişi başlayıb. Nəticə etibarilə ixracın dayanıqsız olması və azalmasının əsas səbəblərindən biri ixrac edilən son məhsulların mütləq əksəriyyətinin xammal komponentindən asılılığı, ixracın əmtəə və coğrafi diversifikasiya əmsalının aşağı olması ilə əlaqədardır.

## Ermənistanın ixrac dayaqsızlığı və ya dayanıqsızlığı

Ermənistanın ixracının şaxələndirilməsi səviyyəsi aşağıdır. 2020-ci ilin birinci rübünün ixrac statistikasına əsasən, ixracın əmtəə strukturunda əsas paya malik məhsulların tərkibinə mis filizləri və konsentratları, ferro-ərintilər, qızıl, zərgərlik məmulatları və onların hissələri (35,4 faiz), qida, tütün, alkoqollu və alkoqolsuz içkilər (29,4 faiz), qiymətli və qiymətsiz daş, metal və metaldan hazırlanan məhsullar (13,1 faiz) aiddir. Sadalanan bu üç sektorun ümumi ixracda payı 80 faizə yaxındır. Mədən sənayesinin əmək qüvvəsinin əhəmiyyətli hissəsi kişilərdən ibarət olduğundan Ermənistanda elan edilən səfərbərlik mədən sektorunda istehsalı məhdudlaşdırır və ixrac gəlirlərini də azaldır. COVID-19 pandemiyası səbəbindən dünya bazarında mineral xammalın qiymətləri endiyindən Ermənistanın əsas ixrac məhsullarından gəlir azalacaq. Çünki ixrac deflyatoru aşağı dünya bazar qiymətlərinə görə mənfi zonaya keçib. Ermənistanın ixracında əsas baryerlərdən biri ixrac bazarlarının uzaqda olması və nəqliyyat-logistika imkanlarının məhdudluğudur. Bu il COVID-19 səbəbindən turizm xidmətlərinin ixracı da minimal səviyyəyə enib.

Ermənistan bu ildən başlayaraq Qazaxıstana da avtomobil reeksportu edə bilməyəcək və bu da ölkənin ixrac gəlirlərini azaldır. Belə ki, Qazaxıstanın Ermənistandan avtomobil idxalına tətbiq etdiyi qeyri-tarif tənzimləmələri nəticəsində həmin məhsullara tələb azalıb və Ermənistan sahibkarlarının gəlirləri aşağı enib. 2019-cu ildə Ermənistan vasitəsilə yenidən ixrac olunan avtomobillər 3 dəfə artaraq 189 minə çatıb. Avtomobillərlə bərabər digər məhsullara tətbiq olunacaq ticarət məhdudiyyətləri Ermənistanın ixracına mənfi təsir edəcək.

## Cənubi Qafqazın zəif bəndi

Cari ilin ilk rübünün statistikasına əsasən, Cənubi Qafqazın ümumi ixracında Ermənistanın payı cəmi 14 faiz olmaqla ən azdır. Müqayisə üçün deyək ki, 2019-cu il ərzində Ermənistan tərəfindən həyata keçirilən ixracın dəyəri Azərbaycanın ixracından 7,5 dəfə aşağı olub. Ermənistanın ixrac əməliyyatlarının aşağı olması qonşu ölkələrlə münaqişə səbəbindən əhəmiyyətli nəqliyyat və logistik imkanlardan kənarda qalması ilə nəticələnib.




Azərbaycana qarşı ərazi iddiaları səbəbindən, Türkiyə və Azərbaycanın regionda həyata keçirdiyi beynəlxalq layihələr kənarda qalması Ermənistanın iqtisadi artım və inkişaf potensialını daima aşağı səviyyədə saxlayır. Bu baxımdan, ərazi iddiaları siyasəti ilə vidalaşacağı təqdirdə, Ermənistanda iqtisadi aktivliyi yenidən bərpa etmək mümkündür.

## İstehlakyönümlü iqtisadiyyatda idxal

İdxalın artım templərini təhlil etdikdə ixracla müqayisədə ticarət balansında mənfi saldonun gələcək illərdə də genişlənəcəyini təxmin etmək mümkündür. Ermənistan tərəfindən idxalda 2017-2019-cu il ərzində 20-25 faiz artım müşahidə edilir. Ermənistanda istehsal edilən məhsulların komponentlərinin idxaldan asılı olması, yerli istehsalda emal edilmiş qida sənayesinin zəif inkişafı, yerli istehsalın daxili bazarda zəif mövqeyi və müqayisəli üstünlüyə malik sektorların azlığı xaricdən əmtəə sifarişini artması üçün əsaslı zəmindir. 2015-ci ildə Avrasiya Gömrük Birliyinə üzvlük Ermənistana digər üzv ölkələrin ixracını daha da artırdı. "Made in Armenia" adı ilə istehsalın zəif olması, istehlakçıların daha keyfiyyətli rus, Belarus və Qazaxıstan məhsulları almağa meyilləndirdi. Bundan əlavə, idxal edilən mal və məhsullarla rəqabətə daxil ola biləcək istehsal sənayesinin olmaması keyfiyyət standartlarının geri qalması ilə əlaqədardır. Birlik çərçivəsində üzv ölkələr arasında idxal rüsumlarının azaldılması və sıfıra endirilməsi (vahid gömrük-tarif siyasəti) həmin ölkələrin Ermənistanın daxili bazarında qiymət üstünlüyünə təsir edib. Əlavə olaraq qeyd edək ki, Avropa İttifaqının (Aİ) Ümumiləşdirilmiş Preferensiyalar Sistemi qoşulduqdan sonra da Aİ ölkələri tərəfindən ixrac əməliyyatları sürətlənib. Buna baxmayaraq, zəif yerli istehsal şəraitində Ermənistanın Avrasiya Gömrük Birliyi və "GSP+" proqramının imtiyazlarından istifadə etmək imkanları zəifdir. Qeyd edilən güzəştlər sistemi çərçivəsində Ermənistanın mal və məhsul ixracında diversifikasiya baş verməyib, əksinə idxal daha da artaraq yerli istehsalçıların rəqabətçilik mövqeyinə zərbə vurub.

Statistika Komitəsinin 2020-ci ilin 8 aylıq pərakəndə ticarət dövriyyəsindəki azalma ilə idxal arasındakı azalma arasında müsbət korrelyasiya mövcuddur. Pərakəndə ticarət dövriyyəsinin strukturunda yer alan əmtəə strukturları geniş diversifikasiyaya malik olunmasa da, mütləq əksəriyyəti idxalyönümlüdür. Bu da Ermənistanda məcmu tələbə qarşılıq məcmu təklifin idxal vasitəsilə qarşılandığını əks etdirir. Xüsusilə, gündəlik istehlak səbətində yer alan benzin, qida məhsulları və dərman ləvazimatlarının mütləq əksəriyyəti idxala bağlı olduğundan, gözlənilən məzənnə volatilliyinin baş verməsi halında ciddi sosial narazılığa səbəb olacaq.

İdxalda əsas paya malik olan məhsullar neft məhsulları və qaz, quş əti, bir sıra kənd təsərrüfatı məhsulları, tütün, tibbi ləvazimatlar, informasiya texnologiyaları, texnoloji ləvazimatlar təşkil edir. Əmtəə strukturuna görə, bu mal və məhsullar ev təsərrüfatlarının, hüquqi şəxslərin gündəlik və aylıq istehlakını təşkil edir. Ermənistanın Statistika Komitəsinin məlumatına görə, 2019-cu ilin pərakəndə ticarət dövriyyəsi 3,3 milyard dolları təşkil edib ki, ən böyük dövriyyəni 76,7 faiz (illik artım 11,7 faiz) mağazalar (supermarket daxil olmaqla) və 15,1 faizlə digər ticarət obyektləri təmin edir. İdxal edilən məhsulların mütləq mağazalarda olduğunu və yuxarıda göstərilən müsbət korrelyasiyanı nəzərə alsaq, yaranan 2,5 milyard dollarlıq dövriyyənin böyük hissəsinin idxala xidmət etdiyini müəyyən etmək olar.

## İnvestisiyadan əldə edilən gəlirlərin azalması

İlkin gəlirlər balansında investisiya gəlirlərinin repatriasiyası artıb ki, bu da balansda 700 milyon dollara yaxın kəsir formalaşdırıb. COVID-19 pandemiyası ilə əlaqədar iqtisadi resessiya qarşılığında xarici ticarət əməliyyatlarının azalması nəticəsində 2020-ci ilin iki rübündə cari hesablar balansının kəsiri 218 milyon dollardan 143,6 milyon dollara enib. Təhlil göstərir ki, kəsirin azalması əmtəə və xidmət ixracının artımı və investisiya gəlirlərindəki artım vasitəsilə deyil, 14 faizlik iqtisadi resessiya, xarici ticarət balansının 13 faiz azalması, birbaşa investisiyalardan gəlirin 8,4 faiz azalması ilə əlaqədardır. Habelə mədən sənayesinin vergi, xarici valyuta və iqtisadi aktivlikdə payının yüksək olduğunu nəzərə alsaq, pandemiya və müharibə şəraitində sözügedən sektorun kiçilməsi qaçılmazdır. Bundan əlavə, Ermənistan Mərkəzi Bankının sentyabrın 30-dakı açıqlamasına görə, 2020-ci ilin sonu üçün ixrac əməliyyatları vasitəsilə valyuta daxil olmaların 12-15 faiz, idxal vasitəsilə valyuta axının isə 15-17 faiz intervalında azalacağı qeyd edilib.

## Maliyyə hesabı balansı

Tədiyə balansının defisiti şəraitində Ermənistanın xarici borcu daha da artacaq. Eyni zamanda, xarici valyuta rezervlərinin əriməsi, kapital balansının azalması və xarici tərəfdaşlardan borc asılılığının artması gözlənilir. Ermənistanın Azərbaycana qarşı provokasiyaları, erməni banklarının aşağı kredit reytinqi və ən başlıcası ictimai-siyasi sabitliyin pozulması ölkənin inam indeksini aşağı salır və xarici borcların şərtlərini sərtləşdirir. 2020-ci ilin avqust ayına görə, Ermənistanın valyuta ehtiyatları 2,6 milyard dollara (qızıl rezervləri mövcud deyil) bərabərdir ki, bu da 3 aylıq idxalı qarşılamaq potensialına malikdir. Nəzərə almaq lazımdır ki, Mərkəzi Bankın ehtiyatlarının yalnız bir hissəsi likviddir və fövqəladə hallarda orta və uzun müddətli aktivlərin vaxtından əvvəl satışı maliyyə itkilərinə səbəb ola bilər.

Tədiyə balansının strukturuna əsasən, maliyyə hesabındakı indikatorlar cari hesablar balansındakı dayanıqsız göstəricilərindən fərqlənmir. Ölkədəki biznes mühitinin əlverişsizliyi və inhisarçılıq xarici investorları ehtiyatlı edir. 2020-ci ilin birinci yarım ilinin göstəricilərinə uyğun olaraq, erməni iqtisadiyyatında birbaşa xarici investisiyalar 2018-ci ilin eyni dövrü ilə müqayisədə 115,8 faiz və 2019-ci ilin eyni dövrü ilə müqayisədə isə 9 dəfə azalıb. Beynəlxalq birja əməliyyatlarında iştirakçılıq səviyyəsi aşağı olan Ermənistanda portfel investisiyalarda azalmalar müşahidə olunur. Bu da yüksək ehtimala əsasən, dövlət əhəmiyyətli şirkətlərdəki rusiyalı qeyri-rezidentlərin geri çəkilməsi hesabına baş verir.

Ermənistan Sovetlər İttifaqından ayrılaraq bazar iqtisadiyyatına keçid dövrünü kölgə iqtisadiyyatı səbəbindən tam reallaşdıra bilməyib. Kölgə iqtisadiyyatı şəraitində verilən iqtisadi artım proqnozlarının real həyatda öz əksini tapmadığı real olaraq görünür. Habelə qonşu ölkələrlə münaqişə səbəbindən yüksək bazar dəyəri olan ölkələrə çıxmaq üçün yalnız şimal xəttindən istifadə edən Ermənistan yüksək nəqliyyat xərcinə görə rəqabətli məhsul satışında məğlub olur. Ev təsərrüfatlarının sosial gərginliyinin azaldılması və bank sektorunun ayaqda durmasını pul baratları vasitəsilə təmin etməyə çalışan ölkə daha kəskin münaqişə şəraitində yeni ssenarilərə hazır olmalıdır. Münaqişədən ilk təsirlənən qeyri-rezident və onun sərmayəsidir ki, bu da maliyyə və kapital repatriasiyasını sürətləndirəcək. Beynəlxalq təcrübəyə əsasən, gələcəyə inamın zəiflədiyi, mülkiyyət hüquqlarının pozulduğu, dinc yaşama hüququnun pozulduğu, hökumətlərin pis idarəetməyə meyl etdiyi və ən başlıcası ölkəni müharibəyə sürükləməsi nəticəsində portfel və birbaşa investisiyalar ölkələri tərk edir. Bu da yerli vətəndaşlar arasında işsizlik və yoxsulluq kimi təlatümlər formalaşdırır.

Ermənistanda "əkiz kəsirlər" problemi - tədiyə balansının və icmal büdcənin kəsiri ölkəni yeni borclanma, siyasi müstəqilliyin daha da məhdudlaşdırılması və iqtisadi rıçaqların itirilməsi təhdidləri ilə üzbəüz qoyub. Regional layihələrdən kənarda qalmaqla "dalana dirənən" Ermənistanın bu il sentyabrın 27-də özündən dəfələrlə güclü qonşusu - Azərbaycana qarşı provokasiyalara başlaması iflası sürətləndirir. Siyasi-iqtisadi müstəqilliyini təmin edə bilməyən Ermənistanın Azərbaycanın ərazilərinin 20 faizini işğalda saxlaması və iqtisadi militarizm siyasəti yürütməsi rasional deyil.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu il avqustun 26-da imzaladığı Sərəncama əsasən 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, möhlət hüququ olmayan vətəndaşlarımızınmüddətli həqiqi hərbi xidmətə çağırışı davam edir.*

# Gənclər müddətli həqiqi hərbi xidmətə gedir!

Gənclər həqiqi hərbi xidmətə getmək, Vətən qarşısında borclarını yerinə yetirmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə böyük ruh yüksəkliyi və həvəslə gəlirlər.

Yolasalma mərasimlərində müvafiq qoşun növlərinin hərbi hissələrinə - təlim mərkəzlərinə göndərilən və qarşıdakı 3 ay müddətində orada təlimlər keçəcək, hərbin sirlərini öyrənəcək və sonra xidmətlərini təyin olunacaqları yerlərdə davam etdirəcək gənclərə şanlı Azərbaycan əsgəri kimi müqəddəs adı daşımaları münasibətilə təbriklər çatdırılır, onlara şərəflə xidmət etmələri, nizam-intizamlı olmaları, hərb işinin sirlərinə mükəmməl yiyələnmələri, komandirlərin tapşırıqlarını sözsüz yerinə yetirmələri tövsiyə edilir.

Xalqımız tarixin müxtəlif dövrlərində taleyini daim inandığı nizami orduya, cəsur, mübariz sərkərdələrə, vətənpərvər oğullara etibar edib. Hərbi xidmətə yola düşən çağırışçılar məhz belə şəxsiyyətləri özlərinə nümunə bilərək Vətənə layiqli övlad kimi xidmət edəcəklərini vurğulayırlar.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti çağırışçılara hərbi xidmətlərində uğurlar arzulayır!

# Qərarı qələbəyə yaxın olan Azərbaycan verir

Hadisələrin bundan sonrakı gedişi artıq Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirliklərinin rəhbərləri arasında keçiriləcək Moskva danışıqlarının nəticələrindən deyil, Qarabağ müharibəsində kimin qələbəyə yaxın olacağından asılıdır. Tanınmış siyasətçilərin, politoloqların dili ilə desək, güclü tərəf, qələbələrə imza atan tərəf diqtə edən tərəf olub və belə də olacaq. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova "Rusiya Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında Moskvada danışıqların təşkili imkanlarını nəzərdən keçirir, bu cür danışıqların mümkün vaxtı ilə bağlı məsləhətləşmələr aparılır", deyə bildirib. Eyni zamanda, Kremlin mətbuat xidməti də açıqlama yayıb.



"Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla bir sıra telefon danışıqlarından sonra Rusiya Prezidenti ölən və əsir düşən insanların mübadiləsi məqsədi ilə Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi əməliyyatları müvəqqəti dayandırmağa çağırıb", deyə açıqlamada bildirilir.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev ölkəmizin məqsədinin Dağlıq Qarabağ ərazisini geri qaytarmaq olduğunu və atəşkəsin yalnız İrəvanın Dağlıq Qarabağdan qoşunlarının çıxarılması üçün bir cədvəl təqdim etdikdən sonra edilə biləcəyini bildirib. Rəsmi Bakı da Türkiyənin vasitəçilik missiyasında iştirak etməsini istəyir. Ankara da ATƏT-in Minsk Qrupunun nəticə əldə etmədiyini və formatın dəyişdirilməli olduğunu bildirib. Beləliklə, Moskva danışıqlar məkanına çevrilir və məhz bu səbəbdən ölənlərin və əsirlərin cəsədlərini mübadilə etmək üçün hərbi əməliyyatları dayandırmaq kimi təklif səsləndirilir. Eyni zamanda, bəzi politoloqlar ATƏT-in Minsk Qrupunun "bu şəkildə Azərbaycanın Dağlıq Qarabağdakı hücum sürətini aşağı salmağa və qüvvələrin yenidən toplanması üçün vaxt qazanmağa çalışdığını" söyləyirlər. Lakin, erməni işğalçılarının işğal etdikləri əraziləri tərk etmədən Qarabağdakı müharibəni dayandırmağın çətin və ya mümkünsüz olacağına inanmaq tövsiyyə olunur həmin politoloqlara.

İndi Putin nə Lenin deyil, nə də Stalin ki, birbaşa diqtə etsin və qərarları özü versin. Əksinə, burada Rusiya tərəfi tövsiyyələrlə çıxış edə bilər. Təbii ki, humanitar prinsplər əsas tutularaq məsələyə məhz bu aspektdən yanaşıla bilər. Bu da sözsüz ki, razılıq əsasındadır və gedişat göstərəcək nələrin olacağını. Onsuz da bu zamana qədər Azərbaycan bütün məsələlərdə humanizm prinsplərini əsas tutub. İstər atəşkəs zamanında, istərsə də müharibə, döyüş şəraitində belə ölkəmiz tərəfindən bütün humanizm prinsipləri gözlənilib, gözlənilməkdə də davam edir. Təbii ki, Ermənistandan fərli olaraq.

Məsələ burasındadır ki, Ermənistan tərəfi heç bir normalara, heç bir zaman məhəl qoymayıb. Bu hadisələrin eskalasiyası fonunda Ermənistanın Azərbaycanın dinc əhalisinin məskunmaşdığı ərazilərə artilleriya zərbələri endirməsin, günahsız insanları qırmasında özünü bir daha biruzə verdi ki, onlar haqqında deyilənləri şübhəsiz olaraq təsdiqləyir.

Vəziyyət tamamilə dəyişib. Bunu bütün dünya da hiss edir, həmçinin münaqişədə bilavasitə iştirakçı olan tərəflər də. Fikir versək görürük ki, dünyanın bir çox ölkələri əvvəlki mövqelərindən fərqli olaraq, indi Azərbaycanın haqq işi uğrunda mübarizə apardığını, haqlı olduğunu təsdiqləyir. Bir növ bunu gec də olsa etiraf edir. Bunun da təbii ki, bir sıra səbəbləri var və ən başlıca səbəb ölkəmizin həm haqlı, həm də güclü tərəf olmasıdır. Təkcə, erməni lobbisinin əlində alətə çevrilən Fransadan, onun seçkilərdə qələbə qazanmaq istəyən və buna görə erməni əsilliələrin səslərinə ehtiyac duyan prezidenti Makrondan başqa bütün dövlətlər, dövlət başçıları Azərbaycanın tərəfində oldular. Ölkəmizin mövqeyini, mənafeyini dəstəklədilər. Hətta, bu aralarda Ermənistan mediasında bu işğalçı ölkənin necə incik vəziyyətdə olduğu, başda Rusiya və onun prezidenti olmaqla bütün dövlətləri və dövlət başçılarını xatqın, xəyanətkar olmaqda ittiham etmələrini xatırlamaq yerinə düşərdi ki, bu da əbəs yerə, səbəbsiz deyil. Ermənilər meydanda tək qaldıqlarının, dəstəklənmədiklərinin fərqindədirlər ki, bu da onları bərk qorxudur və məğlubiyyətlərinin yaxında olduğunu hər birinə xatırladır.

Ermənilər Moskvada keçiriləcək görüşə, ölənlərin və əsirlərin dəyişdirilməsi üçün hərbi əməliyyatların müvəqqəti dayandırılmasına çox da bel bağlamasınlar və elə hesab etməsinlər ki, bu onların xilası və məsələnin yenə də uzadılması deməkdir, xeyr. Hadisələrin sonrakı gedişi artıq Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirliklərinin rəhbərləri arasında keçiriləcək Moskva danışıqlarının nəticələrindən deyil, Qarabağ müharibəsində kimin qələbəyə yaxın olacağından asılıdır. Bu qələbəyə isə Azərbaycan daha yaxındır və beləliklə, şərti qoyan da, qərarı verən də bizik.

***İnam Hacıyev***

# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

***Azərbaycan haqq yolunda mübarizə aparır və apardığı mübarizədə qalib gələcək, tarixi ədaləti bərpa edəcək!***



**ZƏRİFƏ Quliyeva, YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri**

Bu gün məhz Azərbaycan Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev cənablarının rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgəri döyüşlərdə qəhrəmancasına döyüşə-döyüşə bərkiyərək Güclü Ordumuzun gücü ilə Azərbaycan tarixinə qələbələr yazır. Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı döyüşlərdə bərkiyə-bərkiyə, azadlığa yetmək üçün haqq yolundan, Vətən yolunda canından keçərək yaralanan yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bildirdi ki, biz haqq yolunda, öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".

Çünki Qarabağ bizim əzəli torpağımızdır. Azərbaycan Prezidenti dəfələrlə vurğulayıb ki, "Qarabağ Azərbaycandır və nida işarəsi". Və bu günlərdə dövlət başçımızın Azərbaycan xalqına müraciətində də bir daha Ermənistanın baş nazirinin yalan və sərsəm inforomasiyalar olduğunu deyib: "Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndidə demişdir ki, "Qarabağ Ermənistandır və nöqtə". Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi".

Bu gün Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməklə cəbhədə əldə etdiyi qələbələr bir daha sübut edir ki, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Möhtərəm Prezident, cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun əks hücumu nəticəsində uzun illər işğal altında olan torpaqlarımızın azad olması xəbəri hər birimizdə böyük ruh yüksəkliyi yaradır. Çünki bu gün Azərbaycan Ordusu öz torpağı uğrunda, ərazi bütövlüyü uğrunda vuruşur. Artıq Vətən Müharibəsini 13-cü günüdür, hər gün QƏLƏBƏLƏR müjdəsi gəlir, azad olunan ərazilərimizdə Azərbaycanımızın üç rəngli bayrağı dalğalanır. Hər gün, hər saat ardıcıl olaraq qələbə sorağını eşitmək və bu sevinci xalqımıza bəxş edən ölkə Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev Cənabları ilə, Güclü Azərbaycan Ordusu və rəşadətli, qəhrəman əsgərlərimizlə Azərbaycan xalqı qürur və fəxr edir. Və bu gün növbəti qələbə sorağı 1993-cü ildən təcavüzkar Ermənistan tərəfindən işğala məruz qalan Cəbrayılımız və 9 kəndimiz işğaldan azad olunduğu xəbəri qədər böyük sevinc ola bilərmi?

Qələbə münasibəti ilə Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 4-də xalqa müraciət edərək bildirdi ki, bu gün cəbrayıllılar, bütün Azərbaycan xalqı sevinc içindədirlər: "Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz - Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını tökübdü. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi".Ulu Tanrımız bizə bu sevincli göz yaşlarını çox nəsib etsin.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Madagizin erməni işğalından azad olunduğunu elan etdiyi anı hər birimiz gördük. Gördük ki, Prezidentimiz necə böyük sevinc və qürurla bildirdi ki, Qarabağ Azərbaycandır: "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!".

Bəli, gözümüz aydın xalqımız, adın mübarək - SUQOVUŞAN! Bu gün mənliyimiz, kimliyimiz, qeyrətimiz, birliyimiz, qürur mənbəyimiz olan üç rəngli bayrağımız işğal olunan torpaqlarımızda dalğalanması qədər böyük sevinc ola bilər? Bu, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev siyasətinin, Güclü Azərbaycan Ordusunun və rəşadətli əsgərlərimizin qələbəsidir! Xalqımızın birliyinin qələbəsidir!.

Bəli, bu gün hər birimiz o tarixi anları yaşayırıq. Hər an şad xəbər gözləyirik. Əminliklə düşmənin müzəffər Azərbaycan Ordusundan aldığı cavabı uzun müddət unutmayacağını və çox tezliklə Azərbaycan bayrağının Qarabağımızın hər bir güşəsində dalğalanacağını görəcəyik! Qələbə bizimlədir! Ulu Tanrı Prezidentimizin, Güclü Ordumuzun, rəşadətli əsgərlərimizin dayağı olsun! Növbəti QƏLƏBƏ SORAĞI İLƏ!

# Paşinyan Prezident İlham Əliyev qarşısında ağ bayraq qaldırdı!

## Ermənistanın siyasi xəritədən silinməməsi üçün başqa yolu qalmadı

***Azərbaycanın şanlı Silahlı Qüvvələrinin Qarabağ cəbhəsində işğalçı Ermənistanın təcavüzkar siyasətinə qarşı apardığı qələbə yürüşü sonda düşmən tərəfinin diz çökməsinə səbəb oldu. Bu reallıq bir daha sübut etdi ki, Prezident İlham Əliyev əzmli, qətiyyətli və dönməz iradəyə söykənən dövlət başçısıdır. Əbəs deyil ki, erməni tərəfinin cəbhə bölgəsindəki mövqelərini ard-arda itirməsi, ordu sıralarının darmadağın edilməsi və s. kimi hallar sonda Paşinyanın Prezident İlham Əliyev qarşısında ağ bayraq qaldırmasına səbəb olmaqdadır.***

Halbuki, bir müddət bundan əvvələ-yəni Qarabağda lokal döyüşlər başlayana qədər həmin Paşinyan lovğalanaraq, təkəbbürlə sərsəm bəyanatlar səsləndirir, bununla özünü “qalib ölkənin” başçısı kimi təqdim etməyə cəhdlər göstərirdi. Amma o cavabını aldı və elə bir cavab aldı ki, məğlubiyyətə düçar olduğunu etiraf etmək məcburiyyətinə düşdü. Bir sözlə, hazırda baş verən proseslər işğalçı Ermənistanın kapitulyasiyaya imza atmağa hazır olmasının göstəricisidir!

### Nələr əldə olundu?

Cəbhədəki ardıcıl məğlubiyyətlərindən sonra Ermənistan hakimiyyətinin “şərt” dili kökündən kəsildi. Artıq Paşinyanın və komandasının Azərbaycana şərt qoymaq, danışıqlar prosesinin formatını dəyişmək kimi bütün (!) iddiaları altüst edildi, darmadağın oldu. Yəni Ermənistan məhz Azərbaycanın tələb etdiyi şərtlər əsasında danışıqlar prosesinə getmək üçün yalvarmağa başlayıb. Bu gün ermənilərin baş naziri Azərbaycan Prezidentinin qarşısında diz çökür, ölmək üzrə olan, can verən siyasi hakimiyyətini yaşatmaqdan ötrü yalvarışlarını sürdürür.

Nəticədə belə bir qənaətə gəlmək mümkündür ki, danışıqlar prosesi baza prinsiplərinə əsaslanacaq və eyni zamanda Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında yenidən davam edəcək. Danışıqlar birmənalı olaraq Azərbaycan dövlətinin diktəsi ilə müəyyən olunur və Prezident İlham Əliyevin tələb etdiyi kimi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını nəzərdə tutan vaxt qrafiki hazırlanmalıdır.

### Əsgərlərimiz cəbhədə əldə etdiyi uğurlarını diplomatiyadakı uğurlarımıza çevirdi!

Söz yox ki, qəhrəman əsgərlərimiz döyüş meydanında düşmənə layiqli, sarsıdıcı, əzici zərbələr endirdi və qarşı tərəfi sülhə getməyə məcbur etdi. Məsələyə bu kontekstdən yanaşarsaq, deyə bilərik ki, Ali Baş Komandan, Prezident İlham Əliyev status-kvonu özü dəyişib. Bununla dövlətimizin başçısı qətiyyətli siyasətçi olduğunu isbatlamış oldu. Belə ki, işğalçılıq siyasətindən əl çəkmək istəməyən Ermənistanın havadarları olan bir sıra ölkələr, müxtəlif güclər yürütdükləri təzyiqlərinə heç nəyə nail ola bilmədilər, Azərbaycanın haqı, ədalətli mübarizəsinə qarşı sədd qoymağı bacarmadılar. Burada da Prezident İlham Əliyevin qətiyyəninin rolu olduqca nəhəng və əhəmiyyətli oldu.



Bu gün də xalqımızın Lideri, Prezident İlham Əliyev həm də bir Sərkərdə olaraq ermənilərin havadarlarına yerlərini göstərdi, sübut etdi ki, Onun xalqının milli maraqları hər şeydən üstündür və heç bir təzyiq, təsir bu maraqları üstələyə bilmək iqtidarında olmayıb, bundan sonra da olmayacaq!

### Beləliklə...

Beləliklə, fakt göz önündədir və onun ən əhəmiyyətli məqamı budur ki, torpaqlarımızın işğaldan tam azad olunması istiqamətində diplomatik cəbhə öz sözünü deyir. Ali Baş Komandanımızın rəhbərliyi altında şanlı Silahlı Qüvvələrimiz cəmi 10 gün müddətində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Artıq bundan sonra Ermənistana 10 illiklər lazım olacaq ki, özünə yeni ordu qursun.

Başqa tərəfdən, bu ölkəyə uzun illər də lazım olacaq ki, onsuz da çökmüş iqtisadiyyatının əsasları yenidən özünə gələ bilsin. Bu baxımdan, ermənilərin, daha dəqiqi isə Paşinyanın Prezident İlham Əliyev qarşısında diz çöküb, yalvarmaqdan, işğalçı güclərin torpaqlarımızdan çıxaracağını vəd etməsindən başqa heç bir yolu qalmayıb. Əks halda, Ermənistan bundan da ağır vəziyyətə düşməklə, siyasi xəritədən silinmək təhlükəsini yaşaya bilər.

***Rövşən RƏSULOV***

# Mətbuat Şurası bəyanat yayıb

Azərbaycan Mətbuat Şurası beynəlxalq təşkilatlara və media qurumlarına bəyanat ünvanlayıb. Şuradan SİA-ya verilən məlumata görə, bəyanatda bildirilib: “Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa xaricdən jurnalist səfərləri Azərbaycan tərəfi ilə razılaşdırılmalıdır. Bununla bağlı konkret prosedur Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində akkreditasiyadır. Lakin təəssüf ki, bu tələb Şuşada kilsə ətrafında xəsarət almış rusiyalı media təmsilçiləri tərəfindən gözlənilməyib. Buna görə hadisədə məsuliyyət onları əraziyə dəvət edən Ermənistan hakimiyyətinin üzərinə düşür.

Azərbaycan Müdafiə Nazirliyi bəyan edib ki, Şuşadakı kilsənin zərər çəkməsinin Azərbaycan Ordusunun döyüş fəaliyyəti ilə heç bir əlaqəsi yoxdur. Belə olan halda jurnalistlərin həmin ərazidə olmalarının məntiqini ancaq Ermənistan tərəfində axtarmaq lazımdır. Heç bir şübhə yoxdur ki, kilsə kimi dini məkana dağıdıcı hücumun beynəlxalq ictimai rəydə doğuracağı mənfi reaksiyanı hesablayan Ermənistan dairələri orada jurnalistlərin zərər çəkmələrinin neqativ cəhətlərini də düşünüblər. Bu, ciddi təxribatdır, söz və ifadə azadlığı ilə manipulyasiyadır.

Azərbaycan Mətbuat Şurası dünyanın aparıcı beynəlxalq təşkilatlarına və media qurumlarına bir neçə gün əvvəl ünvanladığı müraciətində bildirmişdi ki, Ermənistan xarici jurnalistləri gərginlik zonalarına bilərəkdən yönləndirməklə məşğuldur. Biz bunun təhlükəli tendensiya olduğunu diqqətə çatdırmışıq. Cəbhə xəttinin Azərbaycan tərəfində olan jurnalistlərin qarşı tərəfdən atəşə tutulmaları faktı da onu göstərir ki, Ermənistan hərbçiləri üçün jurnalist həyatının heç bir əhəmiyyəti yoxdur, cəmiyyətin obyektiv informasiyalarla təminatı prinsipi onların marağında deyil.

Azərbaycan Mətbuat Şurası bir daha xarici ölkə jurnalistlərinə müraciət edərək onları Ermənistanın terrorçuların və ekstremistlərin məkanına çevirdiyi işğal edilmiş Azərbaycan ərazilərinə qeyri-qanuni səfərlərdən daşınmağa çağırır. Şura həmçinin Şuşada xəsarət almış rusiyalı media təmsilçilərinin tezliklə sağalmalarını və peşə fəaliyyətlərini davam etdirməyi arzulayır.

# Politoloq: “Ermənistanın baş naziri artıq məğlub olduğunu etiraf edir”

Azərbaycan Ordusunun ard-arda cəbhədə qazandığı uğurlar düşməni qorxuya salıb. Hazırda Ermənistanın baş naziri Nikol Paşinyan ağ bayraq qaldırır. Azərbaycana qarşı iddia və hikkələrlə danışan Paşinyan artıq kapitulyasiya olmaq astanasındadır. O, artıq məğlub olduğunu etiraf edir. Paşinyan Prezident İlham Əliyevə təslim oldu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq Tofiq Abbasov bildirib. Politoloq deyib ki, Azərbaycan Prezidenti İlham Əliyev əzmli, qətiyyətli siyasətçi və dövlət başçısı olduğunu bir daha sübut etdi. Ermənistanın havadarları olan dövlətlər və böyük güclər tərəfindən təzyiqlərə baxmayaraq, Prezident İlham Əliyev öz prinsipiallığını və qəti əzmini bir daha nümayiş etdirdi. Çünki Azərbaycanın milli maraqları Prezident İlham Əliyev üçün ən ali dəyərdir. Qürur duyulası haldır ki, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan silahlı qüvvələri çox qısa müddətdə Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Bundan sonra Ermənistana onilliklər lazım olacaq ki, özünə ordu qursun.



T.Abbasov bildirib ki, Paşinyanın yarıtmaz siyasəti Ermənistanı ağır sosial-iqtisadi vəziyyətlə üz-üzə qoyub. Cəbhədəki məğlubiyyətləri bu ölkədə əhali arasındakı ruh düşkünlüyünü daha da gücləndirib. Artıq uçurumun kənarına gəlib çatdığını anlayan Paşinyan çıxış yolunu təslim olmaqda görür.

Beləliklə, döyüş meydanında Azərbaycan əsgərlərinin əldə etdiyi uğurlar diplomatiya meydanında da uğurlara çevrilir və danışıqların şərtlərini Azərbaycan tərəfi müəyyən edir. Ermənistan rəhbərliyinin danışıqlarda Azərbaycana şərt qoymaq, danışıqlar prosesinin formatını dəyişmək kimi bütün iddiaları darmadağın edildi. Ermənistan Azərbaycanın tələb etdiyi şərtlər əsasında danışıqlar prosesinə getmək üçün bu gün özü yalvarır. Bir sözlə, Prezident İlham Əliyev işğala əsaslanan status kvonu-özü dəyişdirdi.

## 2040-cı ildə Bakının əhalisi nə qədər olacaq?



Gələcək əhali sayının, eləcə də əhalinin yaş qrupları üzrə bölgüsünün müəyyən edilməsi ərazilərdən istifadə, mənzil təminatı, ictimai nəqliyyat sisteminin sərnişindaşıma imkanları, mühəndis və xidmət təminatı infrastrukturu kimi əsas şəhər alt sistemlərinin müəyyən edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

AZƏRTAC xəbər verir ki, bu barədə ictimaiyyətə təqdim olunan Bakı şəhərinin Baş planının layihəsində deyilir. Sənədə görə, Bakı şəhərinin gələcək əhali sayı proqnozunun verilməsi üçün milli və beynəlxalq tendensiyalar nəzərə alınıb, gələcək illərdə şəhər əhalisinin artmağa davam edəcəyi, lakin artım tempinin nisbətən aşağı olacağı proqnozlaşdırılıb.

Bakının 2040-cı ilə olan əhali proqnozunun verilməsi üçün ümumilikdə yeddi fərqli ssenari üzərində təhlil aparılıb. Müxtəlif riyazi modellər və fərqli hesablama yanaşmalarının tətbiqi ilə aparılmış təhlillərə görə hesabat dövrü üçün şəhər əhalisinin 2,88-3,17 milyon nəfər arasında dəyişəcəyi müəyyən edilib. Bakı şəhərinin Baş Planı çərçivəsində əhali artımı ssenariləri üzrə hesablama nəticələrinin ən yüksək həddi əsas götürülüb və 2040-cı ilə qədər şəhər əhalisinin 3,17 milyon nəfər təşkil edəcəyi qəbul olunub.

# Putin qəti şəkildə bəyan etdi: "Qarabağ Azərbaycandır!"

***27 sentyabr təxribatından və ordumuzun əks-hücuma keçməsindən sonra az qala hər gün Rusiya prezidentinə zəng edən və ona normal işləmək imkanı verməyən N.Paşinyana V.Putin dəfələrlə izah etməyə çalışdı ki, hərbi əməliyyatlar Azərbaycan ərazisində gedir və KTMT bu münaqişəyə müdaxilə etmək haqqına sahib deyil. Anlamadı.***



*Abutalıb Səmədov*
*Azərbaycan Naminə Alyans partiyasının sədri*

Bir az keçmişə qayıdaq və 3 ay əvvəlki erməni təxribatını xatırlayaq.

Tovuz rayonu ilə sərhəddə iyul ayında Ermənistanın törətdiyi təxribat Paşinyan hakimiyyəti üçün fəlakətlə nəticələndi. Döyüşlərin birinci günü uğradıqları ağır məğlubiyyətdən qorxuya düşən ermənilər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını(KTMT) təcili köməyə çağırdı.

Ermənilər ümid edirdilər ki, hərbi əməliyyatlar başlayan kimi KTMT hərəkətə keçəcək və yeni əraziləri işğal etməkdə Ermənistana yardım edəcək. Bu ümidi yaradan isə ermənilərin fikrincə KTMT Nizamnaməsinin 3-cü maddəsi və təşkilatın keçmiş baş katiblərindən birinin verdiyi məsuliyyətsiz bəyanatlar idi.

Məhz bu amilləri nəzərə alıb ümidlənən Ermənistan Xarici İşlər naziri Z.Mnasakanyan hərbi əməliyyatlar başlayan kimi KTMT-nin baş katibi S.Zasa zəng etdi, təcili kömək istədi. Bu telefon danışığı barədə sevincək məlumat yayan erməni mətbuatı nazirin "KTMT üzvünə qarşı bu hərbi əməliyyatların təşkilata qarşı hörmətsizlik olduğunu və birlikdə qarşısını almaq zərurətini" tirajlamağa başladı. İddia olundu ki, hərbi-siyasi blok rəhbərliyi ilə fasiləsiz əlaqə saxlanılır və KTMT çərçivəsində yollar axtarılır. Eyni gündə təntənəli şəkildə bildirildi ki, hərbi toqquşmaların baş verməsi ilə əlaqədar olaraq baş katib S.Zas iyulun 13-də KTMT-nin Daimi Şurasının fövqəladə sessiyasını çağırıb.

Ermənistan rəhbərliyi əmin idi ki, bu sessiyada hərbi bloka daxil olan ölkələrin silahlı qüvvələrinin ermənilərlə birgə Azərbaycana qarşı döyüşəcəkləri barədə arzuladıqları qərar qısa müddətdə qəbul olunacaq.

Qərarın qısa müddətdə qəbul olunacağı barədə gözləntilər doğrudan da özünü doğrultdu və təqribən, bir saat sonra üzv dövlətlərlə məsləhətləşmələr aparmaq məqsədi ilə fövqəladə sessiyanın qeyri-müəyyən müddətə təxirə salındığı elan edildi.

Ermənilərin qeyd-şərtsiz dəstək gözlədikləri təşkilat ertəsi gün "baş verən hadisələrdən ciddi narahat olduğunu və tərəfləri atəşi kəsməyə dəvət etdiyini" bildirən bəyanat yaymaqla Ermənistan rəhbərliyini şok vəziyyətinə saldı. Yalnız bundan sonra reallıqları görməyə başlayan erməni siyasətçiləri etitaf etməyə başladılar ki, KTMT-yə ümid bağlamaq sadəlövhlükdür, çünki hərbi bloka daxil olan dövlətlərin hamısı Azərbaycanın dostudur və fövqəladə sessiyanın qeyri-müəyyən müddətə təxirə salınması da İ.Əliyevin müdaxiləsindən sonra baş verib. Bu səbəbdən KTMT-dən ciddi kömək gözləmək ağılsızlıqdır.

Bununla belə Ermənistanın təşkilatdakı daimi nümayəndəsi V.Biyaqov KTMT Daimi Şurasının iyulun 14-də keçirilən iclasında çıxış edərək son yalvarışlarını dilə gətirdi və acizanə surətdə "Müttəfiqlərini həmrəylik göstərməyə, təşkilatın Nizamnaməsinin ruhuna və hərfi mənasına uyğun addımlar" atmağa çağırdı.

Azərbaycan prezidenti İlham Əliyev həmin günlərdə Ermənistanın KTMT-ni köməyə çağırmasına və fiaskoya uğramasına münasibət bildirərək deyirdi: "Azərbaycan Ordusu tərəfindən layiqli cavab alandan sonra Ermənistan dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət etdi, dərhal onlardan yardım istədi, dərhal hayharay qaldırdı ki, qoymayın bizi burada indi boğacaqlar, məhv edəcəklər.

KTMT-nın buna nə dəxli var?

Birincisi, Azərbaycan Ermənistanın dövlət sərhədini pozmayıb, təxribat törətməyib, Ermənistan ərazisinə keçməyib. Belə olan halda KTMT-nın bu işə nə dəxli ola bilər? Bu bir.

İkincisi, bu addım onların acizliyini, qorxaqlığını göstərir. Onu göstərir ki, Azərbaycan qarşısında təkbaşına duruş gətirə bilməyəcəklər və onu bilirlər. Biz də bunu bilirik. KTMT-ya müraciət etmək onların qorxaqlığının növbəti təzahürüdür. Onlar öz qorxaqlığını, rəhbərliyin qorxaqlığını bir daha göstərdilər. Yaxşı, qələt eləmisən, təxribat törətmisən, cinayət törətmisən, - cavab ver buna".

Azərbaycan prezidentinin son dərəcə aydın şəkildə verdiyi izahat yenə N.Paşinyana çatmadı.

Sentyabrın 27-də başlayan və Azərbaycan ordusunu bütün cəbhəboyu hücuma keçmək məcburiyyətində qoyan növbəti erməni təxribatından sonra hər şey yenidən başladı.

Erməni rəsmiləri az qala yalvararaq Nizamnamənin 3-cü maddəsini işə salmağı və Ermənistana yardım göstərməyi xahiş etdilər. Paşinyanın gözünü qorxu elə örtmüşdü ki, KTMT Nizamnaməsinin həmin maddəsində üzv dövlətin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü təhlükə altında olduğu təqdirdə hərbi yardım göstərilməsinin mümkünlüyünü anlamaqda çətinlik çəkirdi.

Az qala hər gün Rusiya prezidentinə zəng edən və ona normal işləmək imkanı verməyən N.Paşinyana V.Putin dəfələrlə izah etməyə çalışdı ki, hərbi əməliyyatlar Azərbaycan ərazisində gedir və heç kim bu münaqişəyə müdaxilə etmək haqqına sahib deyil. Anlamadı.

Bundan sonra Rusiya prezidenti növbəti telefon zənglərindən canını qurtarmaq üçün "Rossiya 1" telekanalının müxbirinin vasitəsilə erməni baş nazirinə əlavə izahat verdi: "Məlumdur ki, Ermənistan KTMT-nin üzvüdür. Bizim bu müqavilə çərçivəsində Ermənistan qarşısında öhdəliklərimiz var. Lakin hərbi əməliyyatlar Ermənistan ərazisində aparılmır".

Bu izahatın da N.Paşinyana çatmayacağını və onun V.Putinə ünvanlanan zəng-yalvarışlarının bitməyəcəyini anlayan mətbuat katibi D.Peskovdaha kəskin bəyanat verməK məcburiyyətində qaldı: "Rusiya KTMT çərçivəsində Ermənistan qarşısında öhdəlik daşıyır! Qarabağ qarşısında heç bir öhdəlik daşımır!"

Beləliklə, həm prezident Putin, həm də onun mətbuat katibi son dərəcə aydın şəkildə izah etdilər ki, hərbi əməliyyatlar Ermənistan ərazisində deyil, Qarabağda gedir. Qarabağ isə Ermənistan deyil, Azərbaycandır!

N.Paşinyan nə qədər əldəqayırma "andişmə mərasimləri" keçirsə də, əldən düşənə qədər "yallı" getsə də, boğazı cırılana qədər "Qarabağ Ermənistandır"deyib, nöqtə qoymağa çalışsa da heç nə dəyişməyəcək və son sözü yenə də Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev deyəcək:

"Qarabağ Azərbaycandır!" "Qələbə bizimlədir!"

# Hərb meydanından qaçan siçovulların isterikası

"Hərb meydanında böyük uğursuzluğa düçür olmuş Ermənistan son günlər Azərbaycanın sosial şəbəkələri məkanında Azərbaycan dilində saxta xəbərlər, səs yazıları yaymaqdadır. Səs yazılarında sərsəm fikirləri ifadə edən ermənilər çalışırlar ki, Azərbaycan ictimaiyyətində çaşbaşlıq və ruh düşkünlüyü yaratsınlar. Amma onlar anlamırlar ki, Azərbaycan ordusunun şücayətləri hər birimizə bəllidir və bu gün döyüş meydanında ermənilərin siçovula döndüyünü hamı sevinclə seyr edir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Azər Badamov deyib.



Deputat bildirib ki, rəşadətli ordumuzun işğaldan azad etdiyi ərazilərimiz, düşmənimizin dəqiq məhv edildiyi legitim hədəfləri və minlərlə canlı qüvvəsi nəinki Dağlıq Qarabağdakı erməniləri, hətta Ermənistanda da böyük vahimə və qorxu yaradıb: "Ermənistan əhalisinin baş nazir Paşinyandan narazılıqları pik həddə çatıb və heç kim Dağlıq Qarabağa döyüşə getmək istəmir". A.Badamovun fikrincə, reallıq odur ki, ermənilər Azərbaycanın işğal altında olan torpaqlarından kütləvi şəkildə qaçırlar: "Hətta xarici televiziya kanallarının Xankəndində insanlardan aldığı müsahibələrdən də göründüyü kimi ermənilər etiraf etməyə başlayıb ki, Dağlıq Qarabağ onlara məxsus deyil, Azərbaycan torpaqlarıdır. Bu gün Azərbaycan xalqı ermənilərin yaydığı yalançı məlumatlara, səs yazılarına deyil, əksinə ordumuzun uğurlarına inanır və hamılıqla Ali Baş Komandandan işğaldan azad olunan ərazilərimiz haqqında yeni xəbərləri intizarla gözləyirlər".

***Aysel Məmmədova***



**Reklam lövhələrinə canlı qəhrəmanlarımızın şəkilləri vurulsun!**

**RÖVŞƏN**
rovsen.rasulov@mail.ru

***Haqq işimizdə qələbələrlə irəliləyirik, zəfər Allaha çox şükür ki, bizimlədir, Qarabağa doğru addım-addım irəliləməkdəyik və bu addımlar heç də kiçik deyil, nəhəngdir - torpaqlarımız düşmən işğalından azad olunur, düşmən qaçır, düşmən sarsıdıcı məğlubiyyətlə barışmalı olacağını bilir, amma qarşıda keçiləcək növbəti qələbə yolları dayanır. Bu haqq işində canlarını, qanlarını müqəddəs torpaqlarımıza axıdan, sevə-sevə, gülə-gülə ölümün üzərinə gedən oğullarımız şəhidlik şərbəti içirlər.***

Ancaq onların gözləri arxada qalmır heç də... Çünki bilirlər ki, arxalarınca minlərlə mərd, igid, ərən Vətən övladları gəlir - yağı, bic, mənfur düşməndən qisas almağa və o qisasları alınır da. Bax, beləcə Azərbaycan Ordusu tarixi salnamə yazır müasir dünyamızda. Bu salnamənin adı Vətən müharibəsidir!

**Ali Baş Komandan cənab İlham Əliyevin "Qarabağ Azərbaycandır!" kəlamı milli zəfər trendimizə çevrilib!**

Və daha bir məqam xalqın vahid, yumruq kimi birləşərək Qarabağ cəbhəsində döyüşən ərənlərimizə möhtəşəm dəstəklər göstərməsidir. Şəhər və rayonlarımızda, hər yerə qələbə ruhu, qələbə əzmi sanki nur saçır, ətrafa işıq yayır. Binaların, evlərin, maşınların, hətta insanların geyimləri üzərində üçrəngli Azərbaycan bayrağı qürurlanaraq göz oxşayır. Ali Baş Komandan cənab İlham Əliyevin "Qarabağ Azərbaycandır!" kəlamı milli zəfər trendimizə çevrilib və bu möhtəşəm trend ta Xankəndinə, Şuşaya qədər yol getmək üzrədir İnşaAllah!

Amma bütün bunlarla yanaşı, bir məqamı da qeyd etməyi özümə borc bildim. Bəli, bir sıra reklam lövhələrində enerji içkilərinin, müxtəlif məişət əşyalarının və s. reklamları bu gün də qalmaqdadır.

**Qarabağda tarix yazan Azərbaycan övladlarını tanıyacaq!**

Fəqət, nəyə görə heç olmasa cəbhədə qələbələrimizin əldə edilməsində şücaət göstərən canlı qəhrəmanlarımızın şəkilləri vurulmur? Niyə işğaldan azad olunmuş ərazilərimizdə müqəddəs bayrağımızın qaldırılmasını əks etdirən şəkillər həm xalqımızın, həm də xarici qonaqlarımızın gözlərini oxşamamalıdır?

Məncə, bundan şərəf gətirən, qürur doğuran iş ola bilməz indiki zamanımızda. Qoy, enerji içkiləri, məişət texnikaları, smartfonlar, diazyn, brend paltar, saat və s. reklamları bircə ay da olmasınlar, nə baş verəcək ki..? Amma bunun yerinə insanlar

Elə isə, çox yaxşı olardı ki, şəhərlərimizdəki reklam lövhələrinə canlı qəhrəmanlarımızın, həm də şəhid ərənlərimizin şəkilləri vurulsun!

# “Amnesty International” riyakar qurumun növbəti qərəzi

*Prezident İlham Əliyev: “Biz öz torpaqlarımızı azad edirik”*

***Təəssüf ki, bu reallığı hələ də bu günə kimi “Human Rights Watch”, “Freedom House”, “Amnesty International” kimi, erməniпərəst dairələr tərəfindən maliyyələşən təşkilatlar anlamır. Və ikili standartlardan və böhtandan əl çəkmir, bu yalanları ilə ölkəmizin beynəlxalq aləmdəki reytinqinə xələl gətirmək və mənfi rəy formalaşdırmaq istəyirlər.***

Ancaq xəbis niyyətlərinə nail ola bilmirlər. İşğalçı Ermənistan ordusnun sentyabrın 27- dən başlayaraq genişmiqyaslı təxribatların qarşısının Azərbaycan ordusu tərəfindən qətiyyətlə alınması və əks-hücumlar zamanı düşməni darmadağın etməsi, Güclü Azərbaycan Ordusnun və rəşadətli əsgərlərimizin şücaəti ilə bir- birinin ardınca qazandığı qələbələr, işğalda olan ərazilərimizin 27 ildən sonra azad edilməsi, görünür erməniпərəst dairələr tərəfindən maliyələşən “Amnesty International” təşkilatını da yandırıb-yaxıb. Lakin bu təşkilatlar bilməlidir ki, Azərbaycan öz torpağı uğrunda vuruşur, Vətən uğrunda vuruşur.

### Prezident İlham Əliyev: “Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində ordumuzun düşmənə vurduğu sarsıdıcı zərbələr barədə danışarkən bildirmişdir ki, biz haqq yolunda vuruşuruq: “Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?!” Dövlət başçısı etdiyi müraciətlərində dönə-dönə bildirir ki, ədaləti bərpa etməklə, ərazi bütövlüyümüzü bərpa edilir, Azərbaycan xalqının ümüdlərini doğruldurуq və bundan sonra da doğruldacağıq: “Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır”,- deyən dövlət başçımız “Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümüdlərini doğruldurуq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

### Bu təşkilatlar bir daha anlamalıdırlar ki, Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır!

Bu qərəzli təşkilatların istəkləri də Ermənistannı baş naziri Paşinyan kimi məhvə düçar olacaq, qərəzli bəyanatlarını da bu gün ancaq özlərindən başqa eşidən olmayacaq da!. Çünki sentyabrın 27-dən Ermənistanın Azərbaycan xalqına qarşı həyata keçirdiyi təxribatçı hərbi təcavüzünü və hərbi cinayətlərini dəstəkləyən dövlət və beynəlxalq təşkilatlar yalnız faşist xislətli olanlardır və bunu dünya dövlətləri də təsdiqləyir. Çünki Azərbaycan öz topağında vuruşur, erməni əsgəri isə başqa dövlətin toqrpağında.

### “Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında”

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bildirib ki, bizim əsgərlərimiz xilaskar əsgərlərdir, erməni əsgərləri işğalçı əsgərlərdir: “Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında? Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik. Artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Ona görə erməni xalqı bunu anlamalıdır. Anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır”.

Novella Cəfəroğlu: “Amnesty International” erməni terrorçularının Azərbaycan ərazisində törətdikləri terror aktlarını demir, erməni yaralanlarının dərdini çəkir”

Hüquq müdafiəçisi Novella Cəfəroğlu yenə də erməniпərəst beynəlxalq təşkilatların, o cümlədən “Amnesty International” erməni terrorçularının Azərbaycan ərazisində törətdikləri terror aktlarını görmədiyini, “ağa” “qara” deyərək təcavüzkar Ermənistanı müdafiə edərək sentyabrın 27-də başlanan müharibədə yenə də hədəf Azərbaycanı qınadığına münasibət bildirərkən deyib: “Bu təəccüb doğurmur. Xislətləri budur. Bu təşkilat indiyədək bir dəfə də olsun Azərbaycana edilən təcavüzü, erməni terrorçularının Azərbaycan ərazisində törətdikləri terror aktları ilə bağlı məsələ qaldırmayıb. Mənim “Amnesty International”a bir neçə sualım var. Bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün öz doğma yurd-yuvalarından didərgin düşüb Azərbaycanın digər yerlərinə pənah gətirməsi, onların təməl insan hüquqlarının pozulması məsələsi bir dəfə bu təşkilat tərəfindən qaldırılıb? İkincisi, “Amnesty International” BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal edilmiş Azərbaycan ərazilərindən geri çəkilməsini tələb edən dörd qətnaməsini icra etmir. Bununla da faktiki olaraq BMT-ni saya salmır, onun qərarlarına tabe olmur. “Amnesty International” bir dəfə də olsun bununla bağlı Ermənistana çağırış edib?”.

N.Cəfəroğlu onu da bildirib ki, ermənilər Gəncə, Mingəçevir, Ağcabədi, Tərtər və digər şəhər və rayonlarda əhalinin sıx yaşadığı yerlərə raket və artilleriya zərbələri endirirlər: “Mülki insanlar həlak olur, yaralanır. Onların əmlakına külli miqdarda ziyan dəyir. Hətta Gəncədə yaşayan erməni əsilli bir qadın bu zərbələr nəticəsində yaralanıb. “Amnesty International” mülki insanların öldürülməsi məsələsini qaldırıb? Ermənistan monoetnik respublikadır. Azərbaycanlılar oradan zorla qovulub. Ancaq orada elə bir mühit mövcuddur ki, digər bütün xalqlar könüllü olaraq oranı tərk edib. Bu gün nəinki “Amnesty International”, digər beynəlxalq təşkilatların da heç biri Azərbaycana bir söz deyə bilməz. Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun hərəkət edir. Azərbaycan öz haqlı davasını aparır”.

Novella Cəfəroğlu qeyd edib ki, Azərbaycan Ermənistanın mülki insanların ölümünü istəmədiyini birmənalı şəkildə bəyan edib: “Ona görə də biz yavaş-yavaş hərəkət edirik. Dövlət başçımız da mülki insanlarla işimizin olmadığını, Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan vətəndaşları olduğunu birmənalı şəkildə bəyan edib. Bizim istəyimiz öz torpaqlarımızın bizə qaytarılmasıdır. Biz müharibəni öz torpaqlarımızda aparırıq. Ermənistan ərazisinə girmirik. Biz Ermənistana girmək istəsək, Naxçıvandan raket və artilleriya zərbələri ilə İrəvanı yerlə-yeksan edərik”.

Bir sözlə, bu erməniпərəst beynəlxalq təşkilatlar nə qədər qərəzli kampaniyalar aparsalar da, Azərbaycan tez bir zamanda öz ərazi bütövlüyünü bərpa edəcək, azad olunan torpaqlarımızda üçrəngli Bayrağımız sancılacaq. Bunu həm erməni xalqı, həm də qərəzli beynəlxalq təşkilatlar anlamalıdır!

**R.KAMALQIZI**



Elçin bayramlı

# Arxa cəbhədə müharibə

### Məqsədli provakatorlarla yanaşı, xeyir vermək istəyərək, savadsızlıqdan və ya ağılsızlıqdan zərər vuranlar da neytrallaşdırılmalıdır

Azərbaycan Ordusunun işğal edilmiş Qarabağda anti-terro əməliyyatlarına başlaması cəbhədə qızğın döyüşlərlə yanaşı, media və internet məkanında informasiya və təbliğat müharibəsini də alovlandırıb.

Xalqımızın beynəlxaql dillərdə bilən hissəsi qlobal media və internet məkanında mübarizə aparır, Azərbaycanla, Qarabağla bağlı həqiqətləri çatdırmaq, Ermənistanın saxtakar və terrorçu mövqeyini sanballı arqumentlər, savadlı mülahizələr, müqayisəli faktlar və sənədlərlə ifşa etməklə məşğuldur. Ədalət naminə demək lazımdır ki, ilk dəfədir informasiya müharibəsində üstün mövqedəyik və məhz bu şəxslərin əməyi ilə dünya ictimaiyyətinin fikrinin obyektiv formalaşmasına nail oluruq.

Feysbuk, Tvitter, Kontakt, Yutub kimi sosial şəbəkələrdəki müzakirələrdə çox gərgin mübarizə gedir. Müşahidələrimə görə, aparılan təbliğatlar nəticəsində bir çox ölkələrdə başqa xalqların nümayəndələri artıq problemə obyektiv mövqedən yanaşır, ermənilərı isə yalnız ermənilər özü müdafiə edir.

Heç bir xarci dil bilməyənlər isə daxili informasiyaları ötürmək, xalqımızı ruhlandırmaq, müzakirələr aparmaqla məşğuldurlar. Bu da 1-ci qədər də olmasa vacibdir. Düzdür, ölkədə yüzlərlə media orqanı bu işlə məşğul olur və əslində, bu qrupa ehtiyac da qalmır, amma hər halda bunlar xeyir verməyə çalışır, zərər vurmur.

Lakin daha 2 qrup da var ki, bunlar dövlətimizin və xalqımızın maraq və mənafelərinə bilərəkdən və ya bilməyərəkdən ciddi zərbələr vururlar.

1-ci qrup düşmənə və bəzi xarici dairələrə işləyən məqsədli provakatorlar, nüfuz agentləri şəbəkəsidir. Onlar bu həssas məqamda xalqda dövlətə qarşı inamsızlıq və qorxu yaratmağa çalışır, psixoloji terrorla məğul olurlar. Bunlarda DTX fəal şəkildə məşğul olur və zərərsizləşdirir.

2-ci qrup isə guya, xeyir vermək istəyərək, savadsızlıqdan və ya ağılsızlıqdan zərər vuranlardır. Belələri hər əlinə gələn məlumatı mənbəyinə baxmadan, məqsədinə varmadan paylaşır, bununla da özləri də bilmədən 1-ci qrupun əlində alətə çevrilirlər.

Savadı və dünyagörüşü az olan kütləni yönəltmək üçün xüsusi mərkəzlərdə hazırlanmış peşəkar provakatorlar var ki, internet məkanı onlar üçün çox böyük imkanlar açıb. Cəmi 5-10 nəfər peşəkar provakator kifayətdir ki, minlərlə insanı idarə edib öz məqsədlərinə işlətsinlər. Bir iki saxta vətənpərvərlik boşboğazlığı çığırmaq kifayətdir ki, sənin hər dediyinə inansınlar.

Ordunu, dövləti dəstəkləmək feysbukda boşboğazlıq etmək, hər əlinə keçən paylamaq, vətənpərvər şüarlar yazmaq deyil. Ordunu, dövləti elə dəstəkləmirlər. Bəs necə edirlər? Şərif demişkən, bu saat mən sizə “sübutalni, dakumentalni” başa salım.

Ön cəbhədə müharibə gedəndə, arxa cəbhədə xalq sakitcə, vicdanla və fədakarlıqla Qələbə üçün işləməlidir. Bu dövrdə, sözdə yox, əməldə milli birlik nümayiş etdirmək, rüşvət almamaq, bir-birinin ayağının altını qazmamaq, müxtəlif yardımlar toplayıb cəbhəyə göndərmək, Silahlı Qüvvələrə Yardım Fonduna pul keçirmək, informasiya müharibəsində qalib gəlmək üçün mübarizə aparmaq və bu kimi faydalı işlərlə məşğul olmaq lazımdır.

Vaxtilə qalib gəldiyimiz Böyük Vətən Müharibəsində heç şou göstərildi? Xeyr! Əvəzinə yuxarıda dediyim işləri gördülər. Və qalib gəldilər! Tamaşanı axırda göstərdilər - Qızıl Meydandakı Qələbə Paradında. Bütün digər müharibələr də belə olub.

Problemin həllini üzərinə götürmüş, lakin 25 ildir bizi barmağına dolayaraq Qarabağın Ermənistanda qalmasına şərait yaradan ATƏT-in Minsk Qrupunun həmsədrləri olan dövlətlərin Bakıdakı səfirlikləri qarşısında, BMT-nin nümayəndəliyi qarşısında da iş görmək olar.

Məsələn, Amerika səfirliyi qarşısında aksiya keçirmək tələb etmək olar ki, işğalçı Ermənistana etdiyin yardımlar bir yana, özün demokratiyadan, terrora qarşı olmaqdan danışa-danışa işğal olunmuş Qarabağdakı terrorçu rejimə hər il rəsmi kanallarla on milyonlarla dollar açıq maliyyə yardımını niyə göstərirsən?

Fransadan soruşmaq olar ki, Ermənistana və Qarabağdakı terrorçu rejimə siyasi dəstəyi, hər il xeyli silah və pul yardımını niyə verirsən?

Rusiyadan soruşmaq olar ki, Ermənistana işğal etdiyi ərazilərdən çıxması üçün niyə təzyiq etmirsən?

BMT-dən soruşmaq lazımdır ki, sən nədən ötrüsən, məgər sənin vəzifən dünyadakı problemləri həll etmək deyilmi? Sənə hər il filan qədər üzvlük haqqını niyə veririk ki? Niyə işğalçıya, terrorçuya qarşı səsini çıxarmırsan, tədbir görmürsən?

Müharibəni ağılla və fədakarlıqla udurlar. Başqa heç bir yolla qalib gəlmək mümkün deyil. Qələbənin sadə formulu var. Ordu əzmlə döyüşür, arxa cəbhə, yəni, xalq fədakarlıqla qələbə üçün işləyir - Cəbiş müəllim kimi! Böyük Vətən Müharibəsindəki məşhur şüarda deyildiyi kimi - “Hər şey Cəbhə üçün, hər şey Qələbə üçün!”

Cəbiş müəllimləri çox olan xalq qalib gəlir.

Biz bu müqəddəs müharibədə qalib gəlməyə məhkumuq. Başqa yolumuz yoxdur.

# Cənubi Qafqazda demoqrafik balans: Kimin xeyrinədir?

## *Azərbaycan-Gürcüstan-Ermənistan: demoqrafik vəziyyət haqda hesabatlar və proqnozlar nə göstərir?*

Sovet İttifaqı dağıldıqdan sonra Cənubi Qafqazda demoqrafiq proseslər ziddiyyətli templə inkişaf edib. Bölgədə ümumi əhali sayı 2 milyon nəfər artsa da, bu, 3 respubikanın sayəsində baş verməyib. Belə ki, təkcə Azərbaycanda əhali 3 milyon nəfər artıb, digər ikisində isə artım baş verməyib, əksinə 1 milyon nəfər azalıb, beləliklə də, regionda əhali sayı dəyişməsə də, ölkələr arasında balans xeyli dəyişib. Bəs bu necə mümkün olub? Bu yazıda son 30 ildə Cənubi Qafqaz respublikalarını demoqrafik proseslərin fonunda müqayisə etməyə çalışacağıq.

### Cənubi Qafqazın son 30 ildəki demoqrafiyası

BMT ekspertlərinin hesablamalarına görə, Cənubi Qafqaz respublikalarında ötən 30 il ərzində əhalinin ümumi 3 milyon nəfər artıb. 1990-cu ildə bölgənin 3 respublikasında- Azərbaycanda 7, Gürcüstanda 5, Ermənistanda 3 milyon olmaqla 15 milyon nəfər yaşayırdı. Ötən il də bu rəqəm 15 milyon nəfər təşkil edib. Yəni, artım 2 milyon təşkil edib. Bu artım isə, son 30 il ərzində əhali artımının dayandığı və azaldığı Ermənistan və Gürcüstanın yox, Azərbaycanın hesabına baş verib. Lakin bu o demək deyil ki, Azərbaycan əhalisi cəmi 1 milyon artıb, digərləri sabit qalıb. Əksinə, Azərbaycanda əhali sayı 3 milyon nəfər artıb, digər 2 ölkədə isə həresində 1 milyon azalıb. Azərbaycanda əhalinin artımının (+3 milyon nəfər) ümumilikdə bölgədə əhalinin artım səviyyəsinin müsbət saldo ilə ifadə olunmasına (+2 milyon nəfər) səbəb olub.

Son statistik göstəricilərə görə, hazırda Ermənistan (3 milyon nəfər) və Gürcüstanın (4 milyon nəfər) əhalisinin sayı bir yerdə götürdükdə (7 milyon nəfər) Azərbaycanın əhalisinin real sayından (10 milyon nəfər) 3 milyon nəfər azdır.

### Cənubi Qafqaz üçün proqnozlar nə vəd edir?

Hazırda Azərbaycanın əhalisinin real sayı Ermənistan rəsmi əhalisinin sayından 3 dəfədən artıq, faktiki əhalisinin sayından 5 dəfə çoxdur. Əgər davam edən demoqrafik prosesi əsas götürsək, 2030-cu ildə Azərbaycanın əhalisinin real sayı 11 milyonu keçəcək, Ermənistan və Gürcüstan əhalisi isə artmayacaq. 2030-cu ildə hər 3 qafqazlıdan 2-i azərbaycanlı olacaq.

BMT ekspertlərinin proqnozlarına görə, əsrin ortalarında Ermənistanda əhalinin sayının Azərbaycanda yaşayan əhalinin sayından 6-7 dəfə az olacaq. XXI əsrin 2-ci yarısında isə Azərbaycanda Ermənistan və Gürcüstanın birlikdə götürülmüş əhalisinin sayından təxminən 3 dəfə artıq əhali yaşayacaq. Belə ki, BMT demoqraflarının proqnozlarına görə, 2050-ci ildə Azərbaycanda 14 mln., Gürcüstanda 3 mln., Ermənistanda 2 mln. nəfər yaşayacaq. 2100-cü il üçün isə bu göstərici müvafiq olaraq 20 mln., 2,5 mln. və 1.5 mln-dur.

Bölgənin demoqrafik xəritəsinə dair ən müxtəlif hesablamalar və proqnozlar vəziyyəti aydın göstərir. Göründüyü kimi, qarşıdakı müddətdə hər iki qonşu ölkədə əhalinin sayında azalma, Azərbaycanda isə artma müşahidə olunacaq. Lakin məlum olduğu kimi, ölkələrin müqayisəsində say çoxluğu heç vaxt əsas meyar kimi götürülməyib. Biz saydan başqa, bütün digər sahələrdə də üstünük ki, onların da başında elm, təhsil, texnologiya, iqtisadi inkişaf, sosial rifah gəlir.

### Azərbaycan: Demoqrafik inkişafın səbəbləri

Üumiyyətlə, son 30 ildə keçmiş Sovet məkanında ən yüksək artım Azərbaycanda olub- 40%.

Son 30 ildə Azərbaycanda əhalinin artım tempi demək olar ki, sabit templərlə davam edib. İllik əhali artımı təxminən 100 min nəfər təşkil edir. Bu isə, ölkədə sosial-iqtisadi vəziyyətin digər 2 respublikaya nisbətən yüksək olması, həmçinin, milli mentalitetlə bağlıdır. Azərbaycanda 1 və 2 uşaqlı ailələr azuşaqlı ailə sayılsa da, digərlərində bu normal sayılır. Bundan başqa, Azərbaycan hökumətinin həyata keçirdiyi sosial-iqtisadi proqramlar, ölkədə biznes və investisiya mühitinin yaxşılaşdırılması, cəmiyyətin tibbi sağlamlığının qorunması və sair faktorlar ölkədə əhalinin artım tempini yüksəldib.

Bütün bunların nəticəsində, ölkədən xaricə miqrasiya minimuma düşüb, əskinə Azərbaycana işləmək və yaşamaq üçün gələnlərin sayı artıb. Məlum olduğu kimi, ölkələrin yaxşı olub-olmamasını ölçən meyarlardan biri də budur. Bu səbəbdən daha çox adamın xaricə köçdüyü Ermənistanla və Gürcüstanla müqayisədə Azərbaycanın yaşamaq və işləmək üçün daha yaxşı ölkə kimi qəbul edilməsi hər şeyi aydın göstərir.

### Gürcüstan: Demoqrafik böhranın səbəb və nəticələri

Gürcüstan əhalisi 2020-ci il yanvarın 1-ə təxminən 4 milyon nəfər təşkil edir. Bu, Cənubi Qafqazda 2-ci ghöstərici olmaqla, Azərbycandan 2,5 dfə az, Ermənistandan isə 1, 5 dəfə çoxdur. 1991-ci ildən sonra 1 mln nəfərə yaxın gürcü Rusiyaya miqrasiya etməli olub. Bundan başqa, Gürcüstan vətəndaşı olan azı 50 min nəfər azərbaycanlı da Azərbaycana köçüb. Gürcülər arasında Ukrayna, Polşa, Böyük Britaniya və digər örkələrə miqrasiya edənlərdə az deyildir. Ölkədə baş verən hərbi qarşıdurmalar və seperatçılıq prosesləri də əhalinin miqrasiyasına ciddi təsir edib. Lakin iqtisadi və sosial problemlər də buna öz təsirini göstərib.

2019-cu ildə ölkədə ümumilikdə, 48 296 körpə doğulub. Bu göstərici 2018-ci ildə 51 138 nəfər təşkil etmişdi. Ölüm halları isə 46 524 nəfərdən 46 659 nəfər qədər artıb. Ötən il Gürcüstan əhalisinin 20%-i yoxsulluq həddindən aşağıda yaşayıb. Gürcüstanın Milli Statistika İdarəsinin məlumatına görə, şəhər əhalisinin 16,4%-i, kənd əhalisinin isə 23,7%-i yoxsulluq səviyyəsindən aşağıda yaşayıb. Ümumilikdə, Gürcüstan əhslinin son 30 ildə 5 milyon nəfərdən 4 milyon nəfərədək azalması müşahidə olunub bu da ciddi demoqraik böhran miqyasındadır.

### Ermənistan: Demoqrafik vəziyyət faciə həddində

SSRİ tərkibində dotasiya ilə yaşayan Ermənistanın müstəqillik əldə etdikdən sonra bütün xarici yardımlara baxmayaraq, sosial-iqtisadi böhran keçirməsi və nəticədə miqrasiyanın ən yüksək səviyyəyə çıxması bu ölkədə əhali artımını dayandırıb və azaldıb. Ermənistan İnzibati İdarəetmə Nazirliyinin rəsmi statistik göstəricilərinə görə, son 30 ildə (1990-2020-ci illər) Ermənistanı 1,5 milyon nəfər tərk edib. "İcma və hüquq" qeyri-hökumət təşkilatının apardığı monitorinqin nəticələrinə görə isə, ölüm səviyyəsinin doğum səviyyəsindən yüksək olması, yoxsulluq və miqrasiya prosesi əhalinin artımını dayandırıb.

Yalnız son 1 ildə ölkədə yoxsulların sayı 300 min nəfər artıb. Hazırda Ermənistanda faktiki 2 milyonluq əhalinin içində yoxsul insanların sayı 1 milyondan artıqdır. Erməni mediası belə bir maraqlı məqama da diqqət çəkir ki, iqtisadi cəhətdən fəal olan əhalinin bir qismi çoxdan ölkəni tərk etsə də, dövlət onları hələ qeydiyyatda saxlamaqda davam edir.

USAİD-ın Ermənistanda miqrasiya proseslərinə dair araşdırmaları Ermənistandan xarici ölkəyə axının bir istiqamətli olduğunu, ölkəni tərk edən vətəndaşların ən çoxu 10 faizinin geri döndüyünü göstərir. Ölkəni tərk etmiş təqribən bu sayda vətəndaşlar arasında əmək qabiliyyətli əhali qrupu 80% təşkil edir. Bu, həm də hərbi xidmətə yararlı olan vətəndaşların təqribən 70 faizi deməkdir.

İqtisadi böhtan keçirən, sosial problemlərin ağırlaşdığı ölkədə rəsmi olaraq 3 milyon vətəndaş qeydiyyatda olsa da, müxtəlif yerli və beynəlxaql təşkilatların hesablamalarına görə, ölkədə faktiki olaraq 2 milyon nəfər yaşayır. Qalanları Rusiyaya, Ukraynaya, Gürcüstana, Avropa ölkələrinə köçüblər və ya əmək miqrasiyası ediblər.

Bu, miqrasiya probleminin ölkənin demoqrafik vəziyyətinin kəskinləşməsinə ciddi təsir göstərdiyinə əyani sübutdur. Miqrasiyaya səbəb olan 2 problemin (ağır sosial-iqtisadi vəziyyət və müharibə) aktual qalması ölkədən xaricə axının hələ uzun illər davam edəcəyini proqnozlaşdırmağa əsas verir.

### Dünya mediası regionun demoqrafik situasiyası haqda

Dünyanın aparıcı mətbuat orqanları Ermənistanda təhlükəli həddə çatmış miqrasiya problemindən tez-tez yazır. Ermənistanın yeganə himayədarı Fransanın nüfuzlu agentliyi olan "France-Presse"də dərc olunan "Erməni mühacirəti qadınlardan ibarət kəndlər yaradır" başlıqlı məqalədə Ermənistandan kişilərin kütləvi şəkildə xarici ölkələrə axışdığı bildirilir.

Yazıda bildirilir ki, tarlalarda məhsul yığını vaxtı əkin sahələrində yalnız qadınların və uşaqların işlədiyini görmək mümkündür. "Onların ərləri və ataları qazanc dalınca əsasən Rusiyaya üz tutublar",- deyə qeyd olunur. "Ermənistanı 50 min kişi tərk edir. Bu, reproduksiyaya və gender balansına mənfi təsir göstərir, cəmiyyətin qocalmasına səbəb olur. Statistikaya əsasən, Ermənistan vətəndaşlarının 44%-i özü və uşaqları üçün gələcəyi vətəndə görmür", - deyə yazıda bildirilir.

ABŞ-ın tanınmış "Huffington Post" qəzetində dərc olunan məqaləyə görə, hər il Ermənistanı təqribən 60 min erməni tərk edir. Qəzet yazır ki, əmək qabiliyyətli insanların xarici ölkələrə üz doğum göstəricilərinə də təsir edir, belə ki, hazırda əhalinin təbii artımı son dərəcə aşağı səviyyədədir.

Ermənistanda bu sahədə araşdırma aparan yerli və beynəlxalq təşkilatlar da hesab edirlər ki, proseslərin real gedişi sözügedən ölkədə insan resursunun sürətlə tükəndiyini meydana çıxarır. Əhalinin artım səviyyəsi aşağı olduğundan yaşlıların xüsusi çəkisinin davamlı surətdə artması da Ermənistanı böyük sürətlə demoqrafik böhrana yuvarlayır. Bütün bunlar Ermənistanda acınacaqlı vəziyyətin hökm sürdüyünün, ölkənin təkcə demoqrafik yox, həm də böyük sosial-iqtisadi tənəzzül içərisində olduğunu göstərir. Beləliklə, təcavüzkar ölkə getdikcə böhran içərisində boğulur və işğal etdiyi Azərbaycan ərazilərində apardığı ağır müharibəyə görə özünün reabilitasiya imkanlarını itirir. Vəziyyətdən yeganə çıxış yolu isə işğal olunan ərazilərdən çıxmaq, qonşu ölkələrdə normal iqtisadi əməkdaşlıq qurmaqdır. Bunun üçün hələ də gec deyil.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

***Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

10 oktyabr

# Suares Messinin rekordunu qırdı



***Futbol üzrə Uruqvay millisinin və "Atletiko"nun futbolçusu Luis Suares yeni rekorda imza atıb. Qol.az xəbər verir ki, o, buna DÇ-2022-nin seçmə mərhələsinin 1-ci turunun Çili ilə matçında (2:1) nail olub. Görüşdə fərqlənən 33 yaşlı hücumçu Dünya çempionatının Cənubi Amerika seçmə mərhələsində ən çox qol vuran futbolçu olub. O, bu yarışlarda 22 dəfə rəqib qapısına yol tapıb.***

Əvvəlki rekord isə Argentina yığmasının və "Barselona"nın oyunçusu Lionel Messiyə məxsus idi. Onun aktivində 21 qol var. Bunda başqa, Messi də ötən gün Ekvadorla qarşılaşmada (1:0) fərqlənməklə milli komandanın heyətində rəsmi oyunlarda vurduğu qol sayını 39-a çatdırıb. Suaresdə də eyni göstərcidir. Onlar bununla Braziliya yığmasının sabiq üzvü Ronaldonun rekordunu təkrarlayıblar.

# Poqba: "Real"da oynamaq arzumdur



"Mançester Yunayted"in futbolçusu Pol Poqbanın "Real"a keçəcəyi ilə bağlı xəbərlər yenidən gündəmdədir. Fransalı yarımmüdafiəçi bu məsələyə münasibət bildirərkən Britaniya mətbuatına açıqlamasında "Real"da oynamaq istədiyini etiraf edib: "Bəli, hər bir futbolçu "Real"da oynamaq istəyir. Bu, hər kəsin arzusudur. Elə mənim də arzum bu komandada oynamaqdır.

Niyə bu arzunu nə vaxtsa reallaşdırmayım? Amma hazırda Mançesterdəyəm və klubumu da sevirəm". Qeyd edək ki, Poqba 2016-cı ildən "Mançester Yunayted"də çıxış edir.

# Pandemiya rəqəmsal dünyaya keçidi sürətləndirdi



Koronavirus pandemiyası rəqəmsallaşdırma prosesinin sürətlənməsinə gətirib çıxardı - istehlakçılar indi daha çox onlayn alış-veriş edirlər, getdikcə daha çox insan əsas informasiya və əyləncə mənbəyi kimi internetdən istifadə edir. AZƏRTAC BMT-nin Xəbərlər xidmətinə istinadla xəbər verir ki, bu, Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransının (UNCTAD) ekspertləri tərəfindən aparılan araşdırmanın nəticələridir. Mütəxəssislər Çin, Almaniya və Rusiya da daxil olmaqla, bir neçə ölkənin sakinləri arasında sorğu keçirib.

Koronavirus epidemiyası başlayandan bəri elektron və rəqəmsal məhsulları onlayn satın alanların sayı 10 faiz, əczaçılıq məhsulları, həmçinin bağçılıq alətləri və avadanlıq alanların sayı 9 faiz, mebel - 8 faiz, kosmetika və fərdi qulluq əşyaları alanların sayı 6 faiz artıb. Onlayn kurs keçənlərin sayı 8 faiz artıb. "COVID-19 pandemiyası rəqəmsal dünyaya keçidi sürətləndirdi. İndi baş verən dəyişikliklər, qlobal iqtisadiyyat bərpa olunmağa başlayanda uzunmüddətli nəticələrə səbəb olacaq", - deyə UNCTAD rəhbəri Mukisa Kituyi qeyd edib. Respondentlərin yarıdan çoxu indi mal və xidmətləri internetdə daha çox sifariş etdiyini bildirib.

Onlayn alış-verişdə ən böyük artım inkişaf etməkdə olan ölkələrdə baş verib. Pandemiyadan əvvəl geniş yayıldığına görə elektron ticarətdə ən kiçik artım Almaniya və İsveçrədə qeyd edilib.

Eyni zamanda, pandemiyanın yaratdığı iqtisadi böhran və işsizlik səbəbindən internetdəki istehlakçı xərcləri azalıb. Ən çox zərər turizm sektoruna dəyib. Orta hesabla istehlakçılar səyahətə əvvəllər olduğundan 75 faiz daha az xərcləyib.

Onlayn rabitə sahəsindəki nəhənglər arasında WhatsApp, Instagram və Facebook Messenger pandemiya dövründə ən populyardır. Eyni zamanda, getdikcə daha çox insan Zoom və Microsoft Teams-da video zəngləri seçir. Ekspertlər, həmçinin kiçik müəssisələrin onlayn ticarətə keçməyə daha yaxşı hazır olduqlarını da müəyyən ediblər. Inveon elektron ticarət platformasının qurucusu və Baş direktoru Yomi Kastro deyib: "Elektron ticarəti öz iş strategiyalarının əsasına çevirən şirkətlər, pandemiyadan sonrakı dövrə hazırdır".

# Bakıda tramvaylar bərpa olunacaq?



Hazırda şəhər ərazisində bir sıra istifadə olunmayan dəmiryol təhkim zolağı və istifadə olunmayan yük xətləri vardır. Bu barədə bu gün ictimaiyyətə təqdim edilmiş Bakının Baş Planında qeyd edilib. Məlumatda vurğulanır: "Qeyd olunan mövcud infrastruktur yenidən aktivləşdirilə və "tramvay-elektrik qatarı" sisteminin tətbiqində bu infrastruktur imkanlarından istifadə oluna bilər".

Xatırladaq ki, Bakıda tramvayların bərpası "Yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda da öz əksini tapıb. Paytaxtda 80 ilə yaxın tarixi olan tramvay xətlərinin yenidən bərpası nəzərdə tutulur.

**ELAN**

Sadıqov Murad Elçin oğluna məxsus AA1543401 seriyalı şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Luis Hamilton Mixael Şumaxerin rekordunu təkrarlaya bilər



**Formula 1 üzrə dünya çempionatının 11-ci mərhələsi - Ayfel Qran-Prisi start götürür. Yarış Almaniyanın "Nurburqrinq" avtodromunda keçiriləcək. AZƏRTAC xəbər verir ki, yarışda "Mercedes"in təmsilçisi Luis Hamilton Formula 1-in yeddiqat dünya çempionu almaniyalı Mixael Şumaxerin rekordunu təkrarlaya bilər. Britaniyalı sürücü bu nailiyyətə çatmaq üçün Soçidəki son mərhələdə ilk cəhdində fürsəti əldən verib. Bunun səbəbi L.Hamiltonun səhv yerlərdə hazırlıq keçməsinə görə aldığı iki beş saniyəlik cərimə olub. Nəticədə, o, üçüncü yerdə qərarlaşıb. İngiltərəli sürücü ikinci cəhdini bir sıra ölkələrin koronavirus şəraitində mərhələ keçirməkdən imtina etməsindən sonra mövsüm təqviminə daxil edilən Ayfel Qran-Prisində edəcək. Bu yarış, həm də, M.Şumaxerin oğlu Mikin qatılacağı ilk Formula 1 turniri olacaq. O, ilk məşqini "Alfa Romeo" komandası ilə keçirəcək. Onun "Ferrari"dəki komanda yoldaşı britaniyalı Kallum Aylott də Formula 1-də debüt məşqini edəcək.**

**"Nurburqrinq"də Formula 1 mərhələsi sonuncu dəfə 2013-cü ildə keçirilib və alman Sebastyan Fettelin çempionluğu ilə başa çatıb.**

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600